www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15-17 iyul 2017-ci il Şənbə № 148 (6762) Qiymәti 60 qəpik

**Xəbər**

## Evlənmək istəyənlərin 209-da QİÇS aşkarlandı

yazısı səh.3-də

**Gündəm**

### Prokuror Lapşinə 6 il 6 ay cəza istədi



Qarabağa qanunsuz gedən bloggerə gələn həftə hökm oxuna bilər

yazısı səh.6-da

### General oğlunun həbsi daha bir cinayəti üzə çıxardı

yazısı səh.6-da

### Tağı Əhmədovun 300 min manatlıq jetonu - yeni təfərrüat

yazısı səh.7-də

### "İqtidar ABŞ və Rusiya ilə anlaşıb" iddialarına rəylər

yazısı səh.8-də

### Süni mayalanmanın reklamı yasaqlandı, bəs tətbiqinə ehtiyac varmı?

yazısı səh.13-də

### Rusiya səfiri qapadılmış diaspor təşkilatını ittiham etdi

yazısı səh.8-də

### Özəl hərbi şirkətlər: yeni Qarabağ savaşına onlar da qatıla bilər

yazısı səh.10-da

### Azərbaycanda ikili vətəndaşlıq: cəza da var, istisna da

yazısı səh.13-də

### Ölkəmizi terror və xaosdan qoruyan "qızıl formul"

yazısı səh.3-də

### "Gedək, Azərbaycanı udaq" dövrü bitdi: Avroliqanın yekunları

yazısı səh.15-də

Azərbaycan müdafiə nazirinin Rusiya agentliyinə sensasion müsahibəsinin pərdəarxası

# ZAKİR HƏSƏNOVDAN ŞOK MESAJLAR: XƏBƏRDARLIQLAR KİMLƏRƏDİR?

Nazir aprel döyüşlərinin pərdəarxası məqamı barədə: "Aprel döyüşlərinin artıq ikinci günündə Rusiyanın müdafiə naziri Şoyqu zəng vurdu, dedi ki..."; "Ermənilər, əgər heç kəs işə qarışmasa, heç üç gün davam gətirməyəcəklər", deyən müdafiə nazirinin mesajlarının kodlarında nələr var?; **Ekspertlər:** "Ermənistan çaşqınlıq içərisindədir..."



yazısı səh.9-da

## Bakı və Ankara Ermənistanın "nəfəsini" kəsir - blokada güclənir

İzolyasiyanı yarmağın yollarını axtaran İrəvan növbəti fiaskoda; Tiflis erməniləri yenə məyus elədi; rusiyalı politoloq: "Gürcüstan Bakı və Ankaradan o dərəcədə asılıdır ki..."

yazısı səh.4-də



Bahar Muradova

### Vitse-spiker son hadisələrlə bağlı "Yeni Müsavat"a danışdı

yazısı səh.5-də



### Məmurların taleyi Məleykə Abbaszadəyə tapşırıldı - reaksiyalar

yazısı səh.4-də



### Əli Nağıyev sabiq MTN nazirini "boş şifoner" adlandırdı

yazısı səh.6-da

YENİ MÜSAVAT
N 148 (6762) 15 iyul 2017

# Prezidentdən Ərdoğana 15 iyul məktubu



**Prezident İlham Əliyev Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğana məktub göndərib. Məktubda deyilir:**

"Möhtərəm cənab Prezident,

Əziz qardaşım!

İyulun 15-də Türkiyə Cümhuriyyətində qanuni hakimiyyəti zorakılıqla devirmək cəhdinin qarşısının alınmasının bir ili tamam olur. O gecə yaşanan qanlı hadisələr, ölkənin konstitusiya quruluşunu fədakarlıqla qoruyan türk xalqının mətinliyi və insanların öz canını qurban verməsi Azərbaycanda əsil qəhrəmanlıq nümunəsi kimi böyük ehtiramla xatırlanır. Həmin gün demokratiya və qanunçuluğun müdafiəsinə qalxmış milyonlarla vətəndaş bir daha sübut etdi ki, xalqın iradəsinə heç kim qalib gələ bilməz və dövlətçiliyə qarşı yönəlmiş istənilən cəhd iflasa məhkumdur.

Hadisə haqqında xəbər tutan kimi mən dərhal Türkiyənin legitim hakimiyyətinə öz dəstəyimi ifadə edərək, ölkənin konstitusiya quruluşuna qəsd edən Vətən xainlərini birmənalı şəkildə pisləmiş və bununla bağlı Azərbaycanın hökumət üzvlərinə müvafiq tapşırıqlarımı verdim.

Əminəm ki, dövlətçiliyi, demokratik dəyərləri və Sizin rəhbərliyinizlə cəmiyyət həyatının bütün sahələrində əldə olunmuş uğurları yaşatmaq üçün sarsılmaz iradə nümayiş etdirən vətəndaşların rəşadəti və şəhidlərin unudulmaz xatirəsi hamımızın qəlbində daim yaşayacaqdır. Sizin liderliyiniz, türk xalqının həmrəyliyi və qətiyyəti sayəsində xain niyyətlərin qarşısına keçilməz sipər çəkildi, Türkiyə dövləti böyük təhlükələrdən xilas oldu. Ötən dövrdə Siz əhalini səfərbər etməklə, ölkənizin inkişafı və dünya dövlətləri sırasında nüfuzunun güclənməsi istiqamətində böyük işlər gördünüz, şəxsi məqsədlərini xalqın iradəsindən üstün tutan anti-milli qüvvələrə qalib gəldiniz. Bütün bunlar, qardaş Türkiyə vətəndaşları kimi, bizi də ürəkdən sevindirir. Bugünlərdə İstanbulda baş tutmuş Dünya Neft Sammitində Sizinlə keçirdiyimiz görüşü məmnuniyyətlə xatırlayır, apardığımız müzakirələrin gələcək əlaqələrimizin daha da möhkəmlənməsinə ciddi təsir göstərəcəyinə inandığımı bildirirəm.

Əziz qardaşım, bir daha 15 iyul şəhidlərinin ruhuna rəhmət, onların yaxınlarına səbir, qardaş türk xalqına dözüm arzulayaraq, bütün taleyüklü məsələlərdə Sizinlə həmrəy olduğumu ifadə edirəm".

## Araz Ağalarov ABŞ-dakı mülkünü satışa çıxarıb



**Azərbaycan əsilli rusiyalı biznesmen Araz Ağalarov 2006-cı ildə ABŞ-da aldığı mülkünü satışa çıxarıb.**

Modern.az xarici KİV-ə istinadən xəbər verir ki, 8 milyon dollara alınan mülk 6,98 milyon dollara satılacaq.

2001-ci ildə inşa olunan malikanə 2,5 sot sahədə, 7 yataq oyağı, 8 hamam, panoramalı otaqlar, qonaqlar, mühafizə və aşpaz personalı üçün köməkçi tikililər və s. ibarətdir.

Eyni küçədə Araz Ağalarovun oğlu Eminin də 3 milyon dollara aldığı malikanəsi var.

## Bələdiyyə sədri özünü borca görə asıb



**Şəkidə bələdiyyə sədri özünü asıb.APA-nın xəbərinə görə, Şəkinin Qoxmuq kənd bələdiyyəsinin sədri Fətəli Lütfəli oğlu Rüstəmovun meyiti kənd ərazisində köhnə tikilidə asılmış vəziyyətdə tapılıb. 1971-ci il təvəllüdlü F. Rüstəmov evli olub, iki övladı var. Qoxmuq kənd icra nümayəndəsi İlqar Həsənov kənd bələdiyyəsinin sədri Fətəli Lütfəli oğlu Rüstəmovun intiharı barədə danışıb.**

Ölkə.az-ın verdiyi məlumata görə, icra nümayəndəsi mərhumun borcunun olduğunu söyləyib: "İnsan kimi insan, yoldaş kimi yoldaş idi. Ağlımıza gəlməyən vəziyyətdir, şokdayıq. Amma axırıncı axşam atasına deyib ki, bir az borcu var. Günün yetmiş faizini bir yerdə olmuşuq. Bunun ora-bura çıxmağı da olmurdu. Ancaq borcun məbləğindən xəbərimiz yoxdur".

## Təzə ailə qurmuş nazirlik əməkdaşı qəfil öldü

**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin əməkdaşı qəfil vəfat edib. Lent.az xəbər verir ki, nazirliyin Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı Şəhriyar Nikipur dünyasını dəyişib. İlkin məlumata görə, o, infarkt nəticəsində həyatını itirib.**

Nazirlikdən "Report"a bildirilib ki, qurumun beynəlxalq əməkdaşlıq şöbəsinin əməkdaşı Şəhriyar Quşanq oğlu Nikipur 41 yaşında ürəktutmasından dünyasını dəyişib: "Mərhum uzunmüddətli səmərəli fəaliyyəti ilə nazirliyin nümunəvi əməkdaşlarından olub. O, bir sıra beynəlxalq tədbirlərdə çalışdığı qurumu uğurla təmsil edib. Ş.Nikipur bu ilin may ayında iş yoldaşı ilə ailə həyatı qurmuşdu".

## Bakıda marşrut avtobusu dayanacaqda piyadanın üstünə çıxdı

**Bakıda marşrut avtobusu ağır qəza törədib. Lent.az xəbər verir ki, iyulun 13-də saat 20 radələrində Binəqədi rayonu ərazisində, Bakı-Şamaxı yolunun 9-cu kilometrliyində dayanacaqda Abşeron rayon sakini Ceyhun Şirəliyev idarə etdiyi "İsuzu" markalı, 50 BD 389 dövlət nömrə nişanlı xətt avtobusunu arxaya verərkən Bakı şəhər sakini, 1958-ci il təvəllüdlü Eldar Kərimovu vurub. Xəstəxanaya yerləşdirilən E.Kərimov orada ölüb.**

Baş İstintaq və Təhqiqat İdarəsi tərəfindən araşdırma aparılır.

## İnterpol 30 yaşlı azərbaycanlını axtarır

**İnterpol daha bir azərbaycanlı barədə axtarış elan edib. Modern.az-ın məlumatına görə, 1987-ci il təvəllüdlü Elçin Pirişov dələduzluqda təqsirləndirilib. Azərbaycanın məhkəmə orqanı tərəfindən barəsində həbs-qətimkan tədbiri seçilən E.Pirişov istintaqdan yayındığı üçün onun axtarışa verilməsi barədə qərar çıxarılıb. Həmin qərar əsasında E.Pirişov İnterpol vasitəsilə beynəlxalq axtarışa verilib.**

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.



## Bakıda 33 dərəcə isti olacaq

**İyulun 15-də ölkə ərazisində gözlənilən hava şəraiti ilə bağlı məlumat açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən modern.az-a verilən məlumata görə, bugün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Şimal-şərq küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturunun gecə 19-23° isti, gündüz 30-34° isti, Bakıda gecə 19-21° isti, gündüz 31-33° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 757 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-80%, gündüz 45-50 % olacaq.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 22-23°, Zağulba, Buzovna, Mərdəkan, Şüvəlanda 23-24°, Türkan, Hövsan, Sahil, Şıxda 25-26° isti təşkil edəcək.



## Duma Ermənistanla birgə qoşun yaradılması haqda sazişi ratifikasiya etdi

**Rusiya Dövlət Duması Ermənistanla ötən ilin noyabrın 30-da Moskvada imzalanmış birləşmiş qoşun qruplaşmasının yaradılması haqqında sazişi ratifikasiya edib. APA-nın verdiyi məlumata görə, saziş və sənədə əlavə Rusiya-Ermənistan birləşmiş qoşun qruplaşmasının təyinatını, formalaşdırılmasını və istifadəsini müəyyən edir.**

## Rusiya Suriyada 50 il qalacaq

**Rusiya Dövlət Duması Hava Kosmik Qüvvələrinin Suriyada yerləşdirilməsi haqqında müqaviləni ratifikasiya edib. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, sənəd bu ilin yanvarında Dəməşqdə Rusiya ilə Suriya arasında imzalanıb.**

Müqavilədə Rusiya Hava Kosmik Qüvvələri qruplaşmalarının yerləşdirilməsinin əsas vəziyyəti, funksiyaları qeyd olunub.

Sənədə əsasən, Suriyadakı maddi-texniki təminat məntəqəsinin və digər obyektlərin xarici mühafizəsi Suriya tərəfindən həyata keçiriləcək.

Daxili mühafizə, hava hücumundan müdafiə və dislokasiya yerlərində əmin-amanlığın qorunması rusiyalı hərbçilər tərəfindən təmin olunacaq.

Qeyd edək ki, müqavilənin müddəti 49 ildir.

## Ruslar Ermənistana daxili pasportla gedəcəklər

**Rusiya vətəndaşları daxili pasportla Ermənistana səfər edə biləcəklər. Azvision.az xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova dünən Moskvada keçirdiyi brifinqdə deyib.**

Zaxarova eyni zamanda qeyd edib ki, Rusiya vətəndaşları daxili pasportlarla Ermənistan ərazisinə yalnız İrəvanda və Gümrüdə yerləşən beynəlxalq hava limanlarından keçə bilərlər.



## II və III qrupların imtahan nəticələri yaxın 3 gündə elan ediləcək

**İyulun 14-də Dövlət İmtahan Mərkəzi (DİM) 2017/2018-ci tədris ili üçün ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün II və III ixtisas qrupları üzrə qəbul imtahanı keçirib.**

DİM-dən verilən məlumata görə, imtahan respublikanın 11 şəhərində - Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Şirvan, Lənkəran və Xaçmaz şəhərlərində ümumilikdə 66 binada aparılıb.

İmtahan prosesinin idarə olunması üçün DİM-də operativ qərargah fəaliyyət göstərib, müntəzəm olaraq imtahanın keçirildiyi binalarla əlaqə saxlanılıb və imtahan prosesinin gedişi nəzarətdə olub. Bütün binalarda imtahan təlimata uyğun şəkildə keçirilib, abituriyentlərin öz bilik səviyyələrini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

Dəfələrlə xəbərdarlıq edildiyinə baxmayaraq, bəzi abituriyentlər tələb olunan sənədləri özləri ilə gətirmədikləri üçün imtahana buraxılmayıblar. Bundan əlavə, imtahana köməkçi vasitələr, o cümlədən mobil telefon gətirən, imtahanın gedişi zamanı köçürməyə cəhd edən, imtahan qaydalarına zidd hərəkətlərə yol verən abituriyentlər imtahandan xaric olunub və nəticələri ləğv edilib.

İyulun 15-dən etibarən imtahan protokollarının və cavab kartlarının emalı aparılacaq. İmtahan nəticələrinin yaxın 3-4 gün ərzində elan edilməsi nəzərdə tutulur.

## 2017-ci ilin dövlət büdcəsinə dəyişikliklər təsdiq edildi

**Prezident İlham Əliyev "Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi barədə qanunu təsdiq edib.**

## Qobustana yeni prokuror təyin edildi

**Prokurorluq orqanlarında yeni təyinat olub. "Report" xəbər verir ki, baş prokuror Zakir Qaralovun imzaladığı əmrlə Ramin Hüseynov Qobustan rayon prokuroru təyin edilib.**

Qeyd edək ki, Qobustanın keçmiş prokuroru Azər Vahabzadə prokurorluq orqanlarında qulluq keçmənin son yaş həddi ilə əlaqədar bir müddət əvvəl təqaüdə göndərilib.

YENİ MÜSAVAT
N 148 (6762) 15 iyul 2017

# Dubayda oğurlanıb Bakıya gətirilən azyaşlının işində yeni gəlişmə

## Ali Məhkəmə Ceyla Bağırovanın ölkədən çıxarılmasını yasaqladı; nümayəndə Azərbaycan XİN-in rəhbərliyinə çağırış etdi

**Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay Əmirliyində bank sektorunda çalışan Qırğızıstan vətəndaşı Merim Beishekeyeva Azərbaycan vətəndaşı Davud Bağırovu onun azyaşlı övladını oğurlamaqda ittiham edir. Merim Beishekeyeva 2017-ci ilin fevralında Bakıda olub, övladının oğurlanması ilə bağlı ölkə başçısına, baş prokurora, Milli Məclisin sədrinə, ombudsmana AQUP DK-nın sədri Hicran Hüseynovaya müraciətlər ünvanlayıb.**



Merim Beishekiyevanın nümayəndəsi Abdulla Əfəndizadə deyir ki, hazırda Azərbaycanda iş üzrə bir neçə iddia qaldırıblar. Eyni zamanda BƏƏ-nin müvafiq qurumlarında da müraciətləri araşdırılmaqdadır. Azərbaycan məhkəmələrində həmin iddialar üzrə proseslər olduqca ləng və qanun pozuntularına yol verilməklə aparılır. Sonuncu belə proses bir neçə gün əvvəl Ali Məhkəmədə yekunlaşıb. Nümayəndənin sözlərinə görə, 1 saylı İnzibati İqtisad Məhkəməsinə azyaşlı Dubayda oğurlanan Ceyla Bağırovanın adına Azərbaycanda 2012-ci ildə verilmiş doğum şəhadətnaməsinin etibarsız sayılmasına dair iddia veriblər. Məhkəmələrin getdiyi bir vaxtda məlumat alıblar ki, azyaşlını bu dəfə Azərbaycandan çıxararaq başqa bir ölkəyə qaçırılacağı haqda məlumat alıblar. Odur ki, A.Əfəndizadə M.Beishekiyevanın D.Bağırova qarşı 8 fevral 2017-ci ildə Səbayel Rayon Məhkəməsinə təqdim etdiyi "pozulmuş valideynlik hüquqlarının bərpası, uşaqla ünsiyyət hüququnun tanınmasına və uşağın valideynin yanında qalmasına" dair iddiaya azyaşlının Azərbaycandan kənara çıxmasına qadağa qoyulması haqda ərizə əlavə edib.

Ali Məhkəmə C.Bağırovanın ölkədən çıxarılmasını yasaqlayıb.

A.Əfəndizadə deyir ki, 10 may 2017-ci ildə Xarici İşlər Nazirliyinə sorğu ilə müraciət edib. Sorğusunda C.Bağırovanının ötən ilin 3 oktyabrında Dubayda oğurlanaraq İstanbula aparılandan sonra oradan Azərbaycana hansı sənədlərlə gətirməsinə aydınlıq gətirilməsini istəyib. Nümayəndə deyir ki, XİN-dən bu günə qədər sorğusuna cavab verilməyib.

A.Əfəndizadə güman edir ki, həmin vaxt C.Bağırova ölkəyə saxta sənədlərlə gətirilib və XİN buna görə sorğuya cavab verməkdən yayınır.

"Ceyla Bağırova ABŞ vətəndaşıdır. Ceyla Bağırovanın faktiki olaraq oğurlanaraq Azərbaycana gətirilməsi ortalıqdadır. Bu, gec-tez sübuta yetiriləcək. Azərbaycanın Xarici İşlər Nazirliyinin rəhbərliyi yol verməməlidir ki, gələcəkdə qurumun adı uşaq oğurluğu cinayətinə qarışsın" deyə A.Əfəndizadə bildirib.

**Qeyd edib ki, məhkəmələr getdiyi bir vaxtda M.Beishekiyevanın əxlaqsız olması görüntüsünün yaradılması üçün olduqca biabırçı kampaniya aparılır:** "Merim Beishekiyeva ailə tərbiyəsi görmüş, yaxşı təhsil almış, savadlı bir qadındır. Onun anası vaxtilə Qırğızıstanın Mərkəzi Komitəsində, sonradan Prezident Administrasiyasında məsul vəzifələrdə çalışıb. Ona əxlaqsız damğası vurmaq üçün övladı oğurlanmazdan çox əvvəl də məqsədli iş aparılmışdı. Davud Bağırov Dubayda Zarina Jakşinbayeva adlı bir qadından Merim Beishekiyevaya qarşı istifadə etmişdi. Lakin Merim Beishekiyevanın əxlaqlı olmasını, ailə ehkamlarına sədaqəti onu Zarina Jakşinbayevanın əli ilə qurulan tələdən xilas etmişdi. Davud Əfəndizadə Bakıda mənimlə görüşəndə bir video göstərmişdi. Həmin videoda Merimlə Zarina Jakşinbayevanın söhbəti vardı. Zarina Merimə təklif edirdi ki, tanışı olan indusla saatı 1000 dollara yaxınlıq etsin. Merim isə bundan imtina edirdi. Bunu bilə-bilə əxlaqlı bir qadına şər atmaq böyük günahdır. Onun qızının əlindən alınması, oğurlanaraq Bakıya qaçırılması da əxlaqlı olub vaxtilə Davud Əfəndizadə ilə yaşanan problemləri qabartmaması üzündən baş verib. İndi də Qırğızıstanda Aysel Mamırova adlı əxlaqsız qadının əli ilə Merim Beishekiyevaya qarşı şər-böhtan kampaniyası aparılır. Bütün bunlar nəticə verməyəcək. Ona görə ki, Merim Beishekiyeva əxlaqsız deyil. Ona qarşı kampaniyada iştirak edənlər, həmin kampaniyaya pullar xərcləyib aparanların əxlaqları haqda isə bunları demək olmaz. Mən Azərbaycanda bu işə qol qoyan hər bir vəzifəli şəxsi, hakimi vicdanlı, əxlaqlı bir qadına qarşı kampaniyada iştirak etməkdən vaz keçməyə çağırıram".

❑ E.HÜSEYNOV




# Evlənmək istəyənlərin 209-da QİÇS, 1143-də sifilis aşkarlandı

**Bu ilin birinci yarısında nikaha daxil olmaq üçün tibbi müayinədən keçənlərin 259-da sifilis, 46-da isə HİV/QİÇS aşkarlanıb. Səhiyyə Nazirliyindən virtualaz.org saytına verilən məlumatda deyilir ki, ümumilikdə 63137 nəfər müayinələrə cəlb edilib. Onlardan 1853-də talassemiya daşıyıcılığı qeydə alınıb.**

2015-ci ilin iyunundan ötən ayadək müayinədən keçənlərdən 12036 nəfərdə talassemiya daşıyıcılığı, 1143 nəfərdə sifilis, 209 nəfərdə isə QİÇS aşkarlanıb.

Qeyd edək ki, "Ailə Məcəlləsində dəyişikliklərin edilməsi haqqında" Qanunun tətbiqi ilə nikaha daxil olmaq istəyən vətəndaşların tibbi müayinədən keçməsi məcburi olub.

# İŞİD Azərbaycanı təhdid edirmi? - ölkəmizi terror və xaosdan qoruyan "qızıl formul"

## Dünyanın istənilən ölkəsi İŞİD-in potensial hədəfinə çevrilə bilər...

**Mosulun azad edilməsindən sonra dünya mediası İŞİD-in gələcək taleyindən yazır. Mosul azad edildikdən sonra faktiki olaraq İraqda İŞİD sıradan çıxarılıb. Eyni zamanda Suriyada da həm hökumət qüvvələri, həm də şimalda ABŞ ordusu və kürd gücləri (Suriya Demokratik Qüvvələri) İŞİD-in Suriya "paytaxtı" olan Raqqa şəhərini ələ keçirməyə çalışır.**



Doğrudur, hazırda İraqın özündə İŞİD-in nəzarət etdiyi böyük bir ərazi var. Bundan başqa, İraqda Telafer kimi böyük yaşayış məntəqələri hələ də İŞİD-in nəzarətindədir. Yəni İŞİD-in İraqda və Suriyada müqaviməti hələ də davam edəcəyi ehtimal olunur. Ancaq "paytaxtını" və liderini itirən İŞİD-in əvvəlki əzmlə müqavimət göstərməsi mümkün olmayacaq. Üstəlik, təşəbbüsü ələ alan, son 3 ildə aparılan aramsız savaşlarda ciddi təcrübə qazanan İraq ordusu terror təşkilatına qarşı uğurlu əməliyyatlarını davam etdirəcək.

Bir sıra Yaxın Şərq analitiklərinə görə, digər terror qruplaşmaları kimi İŞİD-in də ən son çarəsi "yer altına çəkilmək" olacaq. Qruplaşma "torpaqları"nı itirdikdən sonra gizli fəaliyyətə keçə bilər. Daha əvvəl "Əl-Qaidə" terror təşkilatının həyata keçirdiyi taktikadan istifadə edərək varlığını terror hücumları ilə nümayiş etdirə bilər. Bu isə əvvəlki ilə müqayisədə daha böyük təhdid anlamına gəlir. Çünki daha əvvəl savaş aparmaq və əlində olan əraziləri qorumaq üçün bütün tərəfdarlarını İraq və Suriyaya çağıran qruplaşma bundan sonra "yerli hücrə evlərinə" üstünlük verə bilər. Bu isə o deməkdir ki, dünyanın istənilən ölkəsi İŞİD-in potensial hədəfinə çevrilə bilər.

Bir çox ekspertlərə görə, İŞİD əlində olan şəhərləri və torpaqları itirdikdən sonra gizli silahlı qruplaşmalar şəklində dağınıq fəaliyyətə keçə və İraq və Suriyada hökumət qüvvələrinə uzun müddət müqavimət göstərə bilər. Yeri gəlmişkən, bəzi mənbələrə görə, İraq və Suriyada 30, hətta 40 minə yaxın İŞİD üzvü əcnəbi terrorçunun olduğu ehtimal edilir. Bununla da İŞİD həm adıçəkilən ölkələrdə, həm də bütün dünyada hələ də varlığını davam etdiriyini, mübarizə apardığını nümayiş etdirə bilər.

İkinci tərəfdən isə dünyanın fərqli ölkələrindəki yerli qruplar və oradakı tərəfdarları vasitəsilə silahlı hücumların artması mümkündür. Misal üçün, hazırda Yəməndə, Nigeriyada, Şimali Afrikada - Misir və Liviyada, o cümlədən Filippində İŞİD-ə beyət edən silahlı terror təşkilatları var ki, hələ də aktivdir və terror hücumlarını davam etdirir.

İŞİD-in ikinci gücü isə gizli üzvlərinin olduğu digər dünya ölkələridir, o cümlədən Avropa ölkələridir. Son illərdə fərqli kəşfiyyat və polis məlumatlarına görə, Avropaya mühacirət etmiş bir milyona yaxın qaçqının içərisində 4 mindən artıq İŞİD üzvü də Avropaya qayıdıb. Bunların yanında Avropada yaşayan İŞİD təsirinə düşən ekstremistlər var.

Analoji təhlükə Azərbaycanı da təhdid edir. Çünki Azərbaycandan yüzlərlə sakin bu qruplaşmalara qoşulub. Dəqiq rəqəmlər məlum olmasa da, 400 nəfərdən artıq azərbaycanlının İŞİD və bənzər qruplaşmalara qoşulması haqda məlumatlar vardı. Ancaq sonrakı illərdə bu rəqəmlərin dəyişdiyi bildirilir. Azərbaycan artıq 3 ildir ki, bu təhlükəyə qarşı preventiv addımlar atmağa çalışır. 2014-cü ildə qanunlar sərtləşdirilib, geri qayıdan (təsbit edilən - K.R.) İŞİD üzvləri yaxalanaraq mühakiməyə cəlb olunur. Ancaq risk hələ də güclüdür. Çünki burada və Yaxın Şərqdə nə qədər azərbaycanlının bu təşkilata qoşulduğu dəqiq bilinmir. Eyni zamanda nə qədər insanın geri qayıtdığı və burada radikal qrupların təsirində olması da məlum deyil.

Bir qədər əvvəl MDB Antiterror Mərkəzi geri qayıdan terrorçularla bağlı xəbərdarlıq edib. Çünki ümumilikdə postsovet respublikalarından müxtəlif vaxtlarda verilən rəqəmlərə görə, 3-5 min nəfər arası insan İŞİD-ə qoşulub. İndi onların bir qisminin geri dönməsi təhlükəsi var. Bu isə ciddi təhdid deməkdir, çünki bu insanların əksəriyyəti yaxşı təlim görmüş, ideoloji hazırlığı olan peşəkar döyüşçülərdir.

Azərbaycan hökuməti bir tərəfdən ölkə daxilində radikal dini mərkəzləri ləğv etmək, digər tərəfdən isə geri qayıdanları həbs etməklə preventiv tədbirləri davam etdirir. Lakin hər kəsə məlumdur ki, bu cür terror qrupları istənilən bölgədə deyil, "uyğun şərtlərin" mövcud olduğu, etnik-dini gərginliyin yarandığı və ən əsası, beynəlxalq güclərin maraqlarının toqquşduğu məkanlarda fəallaşır. Çünki indiyə qədər olan təcrübə göstərir ki, terror təşkilatlarının arxasında hər zaman müxtəlif ölkələrin kəşfiyyat xidmətləri dayanır. Terrorçuların silahla, pulla təmin olunması, kəşfiyyat məlumatları əldə etməsini məhz xüsusi xidmətlər təmin edir. Bu mənada bir bölgədə terror fəaliyyətlərinin başlaması orada böyük güclərin maraqlarının toqquşması və ya mənafe tələbləri olduğu zamanı baş verir.

Bu mənada Azərbaycan hələlik terrordan sığortalanmış kimi görünür. Çünki dünyanın münaqişə gücləri üçün hələlik Azərbaycan mühüm enerji dəhlizi və "sabitlik adası" olaraq lazımdır. Digər tərəfdən, yerləşdiyimiz coğrafiya, cənubdan İran, şimaldan Şimali Qafqaz kimi "barıt çəlləyi" ilə qonşu olmamız Azərbaycanda hansısa iğtişaşları böyük güclər üçün həddən artıq riskli edir. Bu səbəbdən Azərbaycanda xaos və münaqişə hələlik böyük güclərin marağında deyil. Bunu hər kəs anlayır.

❑ Kənan RÖVŞƏNOĞLU

YENİ MÜSAVAT
N 148 (6762) 15 iyul 2017

# Bakı və Ankara Ermənistanın "nəfəsini" kəsir - blokada güclənir

## İzolyasiyanı yarmağın yollarını axtaran İrəvan növbəti fiaskoda; Tiflis erməniləri yenə məyus elədi; **rusiyalı politoloq:** "Gürcüstan Bakı və Ankaradan o dərəcədə asılıdır ki..."

**İşğalçı Ermənistanın kommunikasiya blokadasını daha da gücləndirəcək Bakı-Tiflis-Qars dəmir yolunun inşası sürətləndirilib və başa çatmaq üzrədir. Bu barədə "Azərbaycan Dəmir Yolları" QSC-dən bildirilib.**



Bəllidir ki, neçə vaxtdır Ermənistandan yan keçəcək bu mühüm dəmir yolunun işə düşməməsi üçün erməni lobbisi əlindən gələni edir. Hətta az öncə məlumat yayılmışdı ki, Bakı-Tiflis-Qars layihəsinin ləngiməsi və ya reallaşmaması üçün Türkiyə rəhbərliyinə belə təsir göstərən çevrələr var.

Bu da təbiidir. Ən əvvəl o səbəbə ki, dənizə çıxışı olmayan işğalçı ölkə nəyin bahasına olur-olsun, kommunikasiya blokadasını yarmağa çalışır. Hədəf də tranzit ölkə statusunu itirməmək, həmçinin öz iqtisadiyyatını tam çöküşdən xilas eləməkdir. Ancaq Dağlıq Qarabağ məsələsi həll olunmamış qaldıqca bu səylər iflasa məhkumdur. Daha bir səbəbə görə.

Azərbaycan və Türkiyənin mövqeyi və şərtləri bəlli, məsələ ondadır ki, Ermənistanın xarici aləmə dəmir yolu ilə çıxışı həm də Gürcüstan vasitəsilə mümkündür. Gürcüstan isə Azərbaycan və Türkiyə ilə sıx bağlı olduğu, geniş iqtisadi əlaqələr qurduğu üçün birtərəfli qərarlar verə, Bakı və Ankaranın razılığını almadan buna gedə bilmir.

***

Təsadüfi deyil ki, srağagün jurnalistlərə açıqlamasında Gürcüstan baş nazirinin Rusiya üzrə xüsusi nümayəndəsi Zurab Abaşidze bu xüsusda erməniləri məyus edən və onların ümidini qıran açıqlama verib. Abaşidze deyib ki, gürcü hökuməti Tiflis İrəvan-Tiflis-Suxumi-Moskva dəmir yolunun açılması məsələsini nəzərdən keçirmir (axar.az). Onun sözlərinə görə, Rusiya-Gürcüstan danışıqlarında Ermənistana tranzit dəhlizinin açılacağı ilə bağlı ümid verə biləcək məqam yoxdur.

Yada salaq ki, Ermənistanın nəqliyyat naziri Vaan Martirosyan bundan qabaq tezliklə, İrəvan-Tiflis-Suxumi-Moskva dəmiryolunun açılacağına ümid etdiyini bildirmişdi. Bundan qabaq isə Ermənistanın baş naziri Karen Karapetyan Gürcüstana səfəri çərçivəsində Abxaziya dəmiryolu məsələsini müzakirə eləmiş və İrəvana nikbin ovqatla qayıtmışdı. Lakin onun nikbinliyi də özünü doğrultmamışdı.

Təkcə ona görə yox ki, Abxaziya Rusiyanın işğalı altında olduğu üçün bu xəttin işə düşməsinə qarşıdır. Daha bir səbəb odur ki, Ermənistan bununla eyni vaxtda iki mühüm hədəfə çatmış olur: 1. Gürcüstanla Azərbaycanın arasını vurur. 2. Azərbaycanla müharibə variantında əsas müttəfiqi Rusiya ilə daha etibarlı quru əlaqəsi əldə edir.

Sözsüz ki, bu əlaqə Gürcüstanın özünün təhlükəsizliyinə də təhdiddir. Çünki həmin dəmir yolu ilə Rusiyadan hərbi təyinatlı yüklər də daşınacaq. Bu üzdən Suxumi dəmir yolunun bağlı qalması Bakı-Tiflis-Qars dəmir yolunun işə düşməsi qədər hər üç ölkə üçün, üstəgəl də Türkiyə üçün mühüm önəm kəsb edir.

***

"Bakı və Ankara Abxaziyadan keçən dəmir yolunun açılmasını əngəlləyir. Gürcüstan da onlardan o dərəcədə güclü asılıdır ki, başqa bir şeydə təkid edə bilmir". Musavat.com-un məlumatına görə, bu barədə rusiyalı politoloq, Moskvadakı Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər İnstitutunun direktoru Aleksandr Krılov məsələni erməni portalına şərh edərkən deyib.

**Onun sözlərinə görə, texniki məsələlərlə bağlı nəyisə razılaşdırmaq bəlkə də olar, lakin prinsipial maneələr ayrı müstəvidədir.** "İdeyanı kökündən baltalayan Azərbaycan və Türkiyədir. Gürcüstanın özü artıq yolları açılması tərəfdarı kimi çıxış edib. Ancaq Tiflis təzyiqlərə tab gətirməyəcək dərəcədə özünün şərq və Qərb tərəfdaşlarından asılıdır", - deyə ekspert qeyd edib.

**Rusiyalı analitik baş səbəb qismində Ermənistanın gəlir əldə eləməsinin Ankara və Bakıdan ötrü yolverilməz olmasında görür:** "Abxaziya və Cənubi Osetiyadan keçən marşrutlar əslində Gürcüstanın Rusiya ilə əlaqələrini möhkəmlədərdi. Amma hər şey yenə gedib Bakı və Ankaranın "yox"una dirənir. Bu iki paytaxtın Gürcüstana çox güclü təsiri mövcuddur. Söhbət həm enerjidaşıyıcıları, həm də hərbi əməkdaşlıq və sərmayələrdən gedir".

***

Bu, gerçəkdən də belədir: Gürcüstan Azərbaycan və Türkiyədən güclü şəkildə asılıdır. Daha dəqiq desək, üç ölkə arasında iqtisadi, energetika və hərbi sahədə əməkdaşlıq son vaxtlar o qədər inkişaf edib ki, hətta analitiklər "Bakı-Tiflis-Ankara" geosiyasi oxundan danışmağa başlayıblar. Ən əsası, üçlü format ona daxil olan hər bir ölkənin strateji maraqlarına cavab verir. O üzdən də Gürcüstanın bu formatda ermənilər və cari iqtisadi maraqlar xətrinə "xaric oxuması" yolverilməz olmaqla yanaşı, öncə elə onun özünün ziyanınadır.

Hər halda, Rusiyaya güclü bağlanmaqla Gürcüstan öz təhlükəsizliyini möhkəmlədə bilməz. Tam əksinə, 2008-ci ilin avqustundakı "5 günlük müharibə" göstərdi ki, Rusiya müstəqil Gürcüstana qarant yox, ən böyük təhlükədir. Elə öz suverenliyinin yalnız kağız üzərində saxlayan satellit Ermənistanın hazırkı durumu da buna şəkk-şübhə saxlamır.

Ermənistan daxil, region ölkələrinə Rusiya təhlükəsini aradan qaldırmağın, Ermənistanın iqtisadi projelərə qoşulmasının tək yolu isə bəlli: Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, ədalətli həlli. Yəni "top" həmişəki kimi, Ermənistan tərəfdədir...

❑ Siyasət şöbəsi

# Məmurların taleyi Məleykə Abbaszadəyə tapşırıldı

## **Fazil Mustafa:** "Burada publik hüquqi şəxs kimi Dövlət İmtahan Mərkəzinin nə iş görəcəyi mənə aydın deyil"

**Dövlət İmtahan Mərkəzinin (DİM) səlahiyyətləri artırılıb. Bununla bağlı "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Qanunda dəyişiklik edilib. Prezident İlham Əliyev "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 may tarixli 686-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 avqust tarixli 614 nömrəli fərmanında dəyişiklik edilməsi haqqında qanun imzalayıb. Dəyişikliyə əsasən, dövlət qulluğuna yeni qəbul qaydalar, sertifikasiya prosesi, dövlət xidmətlərinin çatdırılması, antikorrupsiya təşəbbüsləri, dövlət qulluqçularının reyestrinin aparılması qaydaları, bu zaman yaranan problemlər və onların həlli istiqamətində görüləcək işlər, dövlət qulluğuna qəbul ilə bağlı elektron imtahanların təşkili DİM-ə tapşırılıb.**



Həmçinin, Azərbaycan dövlət orqanlarında çalışan dövlət qulluqçularının etik davranışlarına əməl olunmasına nəzarəti DİM edəcək.

Bundan sonra vətəndaşlar dövlət məmurlarının qeyri-etik davranışlarından DİM-ə şikayət edə bilərlər. Qeyd edək ki, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadədir.

Bəs görəsən, yeni qaydalar məmur-vətəndaş münasibətləri ilə bağlı müsbət bir yeniliyə gətirib çıxaracaqmı? Bu qanunun tətbiqi mexanizmi nə dərəcədə realdır?

**"Yeni Müsavat"ın sualını cavablandıran Milli Məclisin deputatı Fazil Mustafa məmurların vətəndaşlarla davranışında etik pozuntuların olduğuna diqqət çəkərək bu məsələdə tənzimləyici bir qurum olmasını müsbət hal adlandırdı:** "İstənilən vətəndaşın məmurların davranışına görə müraciət etmək hüququ var. Burada hər hansı problem yoxdur. İstənilən vətəndaş məmurun əməllərindən şikayət verə bilər. Bunun üçün ayrıca bir qurum nəzərdə tutulmaya da bilər. Sadəcə, vətəndaşların bu məsələdə fəallığı əsas məsələdir. Əgər vətəndaşlar bu məsələdə fəal olmasalar, istənilən qurumun səlahiyyətlərinin artırılması bürokratik mexanizm olmaqdan başqa bir işə yaramayacaq. Ona görə də, mənim fikrimcə, məmurların etik davranış qaydaları haqqında qəbul olunan qanuna hər hansı bir şəkildə əməl olunsa, bu problemlərin böyük əksəriyyəti həllini tapar. Vətəndaşdan şikayət daxil olarsa, Dövlət İmtahan Mərkəzi həmin məmur haqqında istənilən tədbiri görə bilər. Həmin şəxsi vəzifəyə təyin edən orqanların bu məsələdə məsuliyyəti var. Ona görə də onlar bu məsələyə nəzarət etməlidirlər".

**Fazil Mustafa qanunun işlək mexanizminin olmasına ümid etdiyini bildirdi:** "Qanunların icrasında onsuz da problemlər var. Ona görə də buna təminat vermək çətindir. Çalışmalıyıq ki, qanunun icrası ilə bağlı problemlər həllini tapsın".

**Fazil Mustafa məmurların vətəndaşlarla davranışında neqativ halların olduğuna diqqət çəkərək, buna qarşı mübarizə aparılmasının vacibliyindən danışdı:** "Xoşagəlməz hallar olduqca çoxdur və bunu aradan qaldırmaq vacibdir. Əks halda, özbaşınalıq baş alıb gedir".

**Hüquqşünas Ələsgər Məmmədli isə "Yeni Müsavat"a danışarkən qeyd etdi ki, DİM-in bu məsələdə nə kimi rol oynayacağı aydın deyil:** "Dövlət İmtahan Mərkəzi bir pablik hüquqi şəxsdir və dövlət qurumu deyil. Belə bir qurumun dövlət məmurunun etik davranışından məsul olması mənə aydın deyil. Ümumi götürdükdə, "Dövlət Qulluğu Haqqında" Qanuna görə, dövlət məmurlarının etik davranış məsuliyyəti var və bununla bağlı etik davranış kodeksləri də var. Bu həm qanunvericilikdən doğan bir öhdəlikdir, həm də mənəvi baxımdan, dövlət məmurunun daşıdığı missiya baxımından mənəvi bir öhdəlikdir. Əgər dövlət məmuru etik davranış kodekslərini pozan, məmura yaraşmayan bir hərəkət edirsə, qanunun tələbinə görə, əməlinin dərəcəsinə görə töhmət ala və ya vəzifəsindən uzaqlaşdırıla bilər. Amma burada publik hüquqi şəxs kimi Dövlət İmtahan Mərkəzinin nə iş görəcəyi mənə aydın deyil".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 148 (6762) 15 iyul 2017



# “Prezidentin dediyi sözlərlə atdığı addımların hər zaman üst-üstə düşdüyünə bütün dünya şahiddir”

## Bahar Muradova: “İndi biz mətbuatda Azərbaycanın bu və ya digər vəziyyətdə atacağı addımları açıq şəkildə müzakirə edə bilmərik”

**“Baxış bucağı”**

**ATƏT Parlament Assambleyasının (PA) son sessiyasında Ermənistanın işğalçılıq siyasətini ifşa edən Azərbaycanın bu qurumdakı nümayəndə heyətinin üzvləri Füzuli rayonunun Alxanlı kəndində olub. Milli Məclisin sədr müavini, ATƏT PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Bahar Muradova, ATƏT Parlament Assambleyasının vitse-prezidenti Azay Quliyev, həmçinin digər deputatlar - Tahir Mirkişili, Kamran Nəbizadə və Elşad Həsənov Ermənistan ordusunun cinayətlər törətdiyi kəndin sakinləri ilə görüşüblər. Görüşdən sonra nümayəndə heyətinin rəhbəri Bahar Muradovaya müraciət edib ondan müsahibə aldıq.**

***- Bahar xanım, ATƏT PA-nın sessiyasından sonra Alxanlı kəndində oldunuz. Düşmənlə üzbəüz kənddə nələr gördünüz, müşahidələriniz, düşüncələriniz nədən ibarətdir?***

- Hadisə baş verəndən şəxsən mənim ürəyim burada idi. Əgər Bakıda olmuş olsaydım, birmənalı olaraq bölgəyə gedəcəkdim. Amma bilirsiniz ki, biz ATƏT PA-nın toplantısındaydıq. Bakıya qayıdandan sonra da qərarımız belə oldu ki, qurumdakı nümayəndə heyəti həmin tərkibdə hadisə yerinə gedək və sadə insanlarla ünsiyyətdə olaq. Parlamentin sədri cənab Oqtay Əsədovun da bölgəyə getməklə bağlı tapşırığına əsasən Alxanlıda olduq. Milli Məclisin məsələyə münasibəti, bu sahədə gördüyü işlər barədə də bölgə sakinlərinə məlumat verdik. Bilirsiniz həm bütün parlament nümayəndə heyətlərimiz vasitəsilə beynəlxalq, təşkilatların rəsmi orqanlarına eləcə də Milli Məclisin dostluq qrupları olaraq xarici həmkarlarına materiallar, şəkillər əlavə olunmaqla xüsusi məktublar ünvanlanır, onların da hazırkı vəziyyətlə bağlı münasibət bildirməsinin vacib olduğu vurğulanır. Üstəlik də millət vəkilləri mətbuatda, televiziyalarda fəal şəkildə bu məsələyə dair mövqelərini bildirirlər və dünya ictimaiyyətini insanlıq əleyhinə yönəlmiş bu vandalizm aktını, uşaqların, qadınların qətlə yetirilməsini pisləməyə çağırırlar.

***- Təmas xəttində əhval-ruhiyyə necədir?***

- Əsas budur ki, onlar dövlətin və Ali Baş Komandan başda olmaqla, Azərbaycan ordusunun himayəsində olduqlarına güvənirlər. Söylədiklərinə görə, hadisə baş verən andan 5 dəqiqə sonra onlar cənab prezidentin bu məsələyə müdaxiləsini hiss ediblər. İstər müvafiq dövlət qurumlarının səlahiyyətləri çərçivəsində olan, istər ordunun vasitəsilə, istərsə də beynəlxalq aləmdə bu məsələ ilə bağlı məlumatlandırmanın təşkili sahəsində atılan addımları yüksək dəyərləndirirlər. Həmçinin dövlətin, cəmiyyətin, xalqımızın bu məsələdə vahid mövqe sərgilədiyini qürurla vurğuladılar. Yəni ilk təəssürat bundan ibarətdir ki, insanlar baş vermiş bu hadisədən təşviş, qorxu hiss etməyiblər. Həmçinin işğalçının əsl məqsədinin də onları qorxutmaq olduğunu da yaxşı anlayırlar. Hər gün bölgəyə gələn ayrı-ayrı insanlara, xarici qonaqlara bölgədəki durumu çatdırmaqla səslərini dünyaya duyurmağa çalışırlar. Hesab edirəm ki, onların dilindən söylənilən həqiqətlər, onların münasibəti daha böyük təsir gücünə malikdir. Biz də mətbuat vasitəsilə, həmçinin onlarla ünsiyyətdə olan digər insanlar vasitəsilə bu həqiqətləri dünya arenasına çıxartmalıyıq. Bizim siyasilər olaraq fikirlərimiz öz yerində, amma Azərbaycan vətəndaşlarının, Zəhranın, Sahibə xanımın doğmalarının, bu ərazidə yaşayan insanların mövqeyini öyrənmək və dünya ictimaiyyətinin diqqətinə çatdırmaq baxımından belə səfərlərin vacib olduğunu vurğulamaq istəyirəm.

***- Siz ATƏT-dəki nümayəndə heyətimizin rəhbəri, Azay Quliyev isə ATƏT PA sədr müavinidir. Bu səfərdən sonra Alxanlı qətliamı ilə bağlı beynəlxalq təşkilatlara müraciətiniz olacaqmı?***

- Məlumat üçün demək istəyirəm ki, Minskdən qayıdan kimi, ATƏT PA sədrinə müvafiq rəsmi məktub artıq ünvanlanıb. Amma əlbəttə, yerdə olduqdan, itkilərə məruz qalmış ailənin nümayəndələri, kənd əhalisi, yas mərasimində iştirak edən bölgə sakinləri ilə görüşümüzdə səsləndirilən fikir və münasibətləri beynəlxalq aləmə çatdırmaq istiqamətində addımlar atacağıq. ATƏT PA-da təmsil olunan ölkələrin nümayəndə heyətlərinə müvafiq məktublar ünvanlayacaq, həm mətbuat, həm də diplomatik poçt vasitəsilə mövqelərimizi onlara çatdıracağıq.

***- Bahar xanım, ölkə prezidenti hökumətin son toplantısında Qarabağla bağlı bir sıra vacib mesajlarını səsləndirdi, Ermənistana və ona havadarlıq edənlərə Azərbaycanın prinsipial mövqeyini ünvanladı. Bundan sonra rəsmi Bakının mövqeyinin necə olacağı qənaətindəsiniz? Danışıqlar baş tutacaqsa, hansı tərəf diktə edəcək?***

- Cənab prezident axı, çıxışında həm də onu vurğuladı ki, Ermənistan heç bir şərt olmadan bütün beynəlxalq ictimaiyyətin təzyiqi və Azərbaycanın apardığı məqsədyönlü məlumatlandırma işinin nəticəsində danışıqlar masasına qayıdıb. Bilirsiniz ki, bu müddət ərzində o, müqavimət göstərirdi, cürbəcür bəhanələrlə boyun qaçırırdı. Danışıqlar masasında əlbəttə ki, Azərbaycanın mövqeyi getdikcə daha artıq güclənməkdədir. Çünki beynəlxalq ictimaiyyət, xüsusilə humanitar hüquqların qorunmasını vacib hesab edən hissə belə bir aktın təkcə azərbaycanlılara və bölgə əhalisinə yönəlmiş olduğunu düşünmürlər. Onlar bunun bütövlükdə insanlığa və humanitar dəyərlərə sığmayan bir addım olduğunu təsdiqləyirlər. Emənistanın təcavüzkar siyasətinin mahiyyətini açırlar, onları qətiyyətlə pisləyirlər, qəzəb və hiddətlərini bildirirlər, hətta bir çoxları işğalçıya sanksiya tələb edilməsini, təcavüzkarın cilovlanmasının vacibliyini vurğulayır və buna çağırış edirlər. Ermənistan isə bu kimi hərəkətlərdən hansısa bir “fayda” güdürdüsə, əksinə, özünü daha ağır bir duruma saldığını anlamaqdadır. Çünki heç bir normal siyasətçi, ölkə rəhbəri başqa ölkənin ərazisini tutmaq baxımından beynəlxalq hüququn prinsiplərini pozmuş olsa belə, amma mülki vətəndaşlara, dinc insanlara, xüsusilə azyaşlı qız uşaqlarına qarşı törədilən belə cinayətlərə müəlliflik etmək istəməz. Bunu edənlər də mütləq dünya ictimaiyyətinin ağır qınaq və qəzəbinə tuş gəlirlər. Bunu Ermənistan hazırda üzərində hiss etməkdədir. Bu da əlbəttə ki, bizim mövqeyimizi möhkəmləndirir, həm danışıqlar prosesində, həm də ümumiyyətlə. Cənab prezident vurğuladı ki, baş verən hadisənin cavabı Ermənistana artıq verilib. Və əgər belə davam edəcəksə, Azərbaycan bütün imkanlarını işə salacaq. Bu imkanların işə salınması perspektivi indidən Ermənistanı və onun havadarlarını düşündürməkdədir. Çünki cənab prezidentin söylədikləri ilə atdığı addımların hər zaman üst-üstə düşdüyünə təkcə biz yox, bütün dünya şahiddir. Ona görə də Ermənistan bundan ciddi və təsirli nəticələr çıxartmalıdır.

***- Beynəlxalq aləm Ermənistan rəhbərliyinin uşaq və qadın qatili olduğuna, işğalçının bu üsulla Cocuq Mərcanlıya mülki əhalinin qayıdışının qarşısını almaq istədiyinə şahidlik etdi. Ermənistanın danışıqlar masasına qayıtması indiki halda onların sarsıdıcı zərbələrdən xilası üçün çıxış yoludur. Amma eyni zamanda separatçı rejim 19 iyulda Qarabağda növbəti “seçki” şousu keçirməyə hazırlaşır. Sizcə, bunun cavabı necə olmalıdır?***

- Siz bilirsiniz ki, onların indiyə qədər keçirdiyi seçkilər, Dağlıq Qarabağın “müstəqilliyi”ni elan etmək üçün atılan addımlar, “referendum”lar dünya ictimaiyyəti tərəfindən qəbul olunmayıb. Beynəlxalq ictimaiyyət qondarma rejimin keçirdiyi hər hansı belə kampaniyaları tanımayıb, onun nəticələrini qəbul etməyib. Azərbaycanın bütün bunların Helsinki yekun aktı prinsiplərinin Ermənistan tərəfindən pozulması kimi dəyərləndirilməsi barədə sərt mövqeyi isə hər zaman olub, indi də belə olacaq. Bu, bir oyuncaq rejimin baş qatmaq və özünün “legitimliyini” dünyaya qəbul etdirmək istiqamətində növbəti bir uğursuz cəhdidir. Azərbaycan heç zaman öz ərazisində ikinci bir erməni dövlətinin yaradılmasına imkan verməyəcək, bir qarış torpağının da masa üzərində danışıqlar və müzakirə predmeti olmasına razılaşmayacaq.

***- Ermənistan XİN başçısı bir müddət əvvəl Qarabağa qanunuz səfəri zamanı iddia etmişdi ki, ilin sonuna qədər bir dövlət Dağlıq Qarabağın “müstəqilliyini” tanıyacaq. Eyni zamanda sonuncu “seçki” cəhdi onu göstərir ki, İrəvan Azərbaycandan çəkinsə də, hansısa dairələrin təhriki ilə təxribatçı niyyətlərini davam etdirməkdə israrlıdır. Belə fikirlər var ki, erməni ordusu ən azı ilkin mərhələdə əhalinin təhlükəsizliyi üçün 10-15 km geri çəkilməsi halında danışıqların davam etdirilməsi qərarı verilə bilər. Siz necə hesab edirsiniz, bəlkə İrəvanın mövqeyinin qarşılığında daha sərt addımların atılması fayda verərdi?***

- İndi biz mətbuatda Azərbaycanın bu və ya digər vəziyyətdə atacağı addımları açıq şəkildə müzakirə edə bilmərik. Amma birmənalı şəkildə hər kəs bilməlidir ki, bayaq söylədiyim kimi, Azərbaycan heç vəchlə buna razı olmayacaq. Hesab edirəm ki, qarşı tərəfin hər hansı hərəkətinə Azərbaycanın cavabı adekvat olacaq.

***- Deməkb olarmı ki, Ermənistan ordusu faktiki olaraq İŞİD-in rolunu oynadı...***

- Əlbəttə. Birmənalı şəkildə. Biz millət vəkilləri ilə həm də ərazini gəzdik. Alxanlı kəndi təmas xəttinə ən yaxın kənddir. Ərazini həm biz, həm də onlar yaxşı bilirlər. Ona görə də bu hadisənin təsadüf olmadığı aydın həqiqətdir. Onlar məqsədli şəkildə mülki əhali yaşayan hissəyə bu mərmini atıblar ki, əhalinin gözünü qorxutsunlar, insanları buradan perikdirsinlər. Təmas xəttinin bu tərəfində onların əl-qolunu bağlayan mülki əhali olmasın ki, onlar digər hərbi məqsədlərini həyata keçirmək və Azərbaycanın içərilərinə doğru irəliləmək, özlərinin “təhlükəsiz bufer zonası” adlandırdıqları ərazini rahat şəkildə genişləndirsinlər. Məqsəd bundan ibarətdir. Yoxsa onlar çox dəqiq bilirlər ki, hərbi atəş nöqtələri haradadır, mülki əhali harada yaşayır. Amma onlar unudurlar ki, Azərbaycan vətəndaşları daha 1992-93-cü illərdəki kimi deyil və Azərbaycan dövləti də həmin dövlət deyil. Çünki hər bir Azərbaycan vətəndaşı təmas xəttində bir əsgər kimi dayanır və o, son damla qanına qədər öz torpağını ya qoruyacaq, ya həlak olacaq. Ermənistan bunu bilməlidir. Bunu Zəhra dramı açıq şəkildə ortaya qoydu...

Bu gün təkcə Azərbaycanda deyil, dünyanın ən müxtəlif ölkələrində buna bənzər hadisələr baş verir. Dünyamızın təhlükəsizliyi, insanlara rahat yaşam şəraiti yaratmaq üçün bütün dünyada səylər birləşdirilməli və belə addımlar qətiyyətlə pislənməli, beynəlxalq hüququn, Helsinki Yekun Aktının prinsipləri, insanlıq üstün götürülməlidir. Ona görə mən Zəhranın ailəsinə, onun yaxınlarına və doğmalarına Allahdan səbr diləyərək bir daha belə hadisənin baş verməməsini arzulayıram.

❑ **Elşad PAŞASOY**

## “Məmurlar buraxdığı səhvə və nöqsanlara görə cavabdehlik daşıdığını unutmamalıdır”

**Parlamentin vitse-spikeri Bahar Muradova dövlət başçısı İlham Əliyevin nazirlərlə son müşavirəsində məmurlara ciddi xəbərdarlığına da ayrıca münasibət bildirib.**

***- Bahar xanım, ölkə başçısının son müşavirədə məmurlara xəbərdarlıqlarına münasibətinizi öyrənmək istərdim. Bu barədə nə deyə bilərsiniz?***

- Hesab edirəm ki, sözügedən xəbərdarlıqlar və verilən qərarlar nəinki müzakirə edilməli, əksinə, dərhal yerinə yetirilməlidir. Çünki bu, cənab prezidentin qanunlarımıza və cəmiyyətimizdə mövcud olan qaydalara uyğun iradəsidir və xalq tərəfindən də geniş dəstəklənməkdədir. Belə olan halda hər kəs bu tələbin yerinə yetirilməsinə çalışmalı, şərəfli məmur, millət vəkili adına, o cümlədən daim diqqət mərkəzində olan ictimai-siyasi xadimlərə qarşı olan tələbləri nəzərə almalıdırlar.

***- Sizcə, bir sıra məmurlar niyə prezidentin xəbərdarlıqlarını unudurlar?***

- Mən düşünmürəm ki, bu, məqsədli şəkildə edilir. Sadəcə, hər kəs buraxdığı səhvə və nöqsanlara görə cavabdehlik daşıdığını unutmamalı, sayıqlığını itirməməli və səhlənkarlığa yol verməməlidir. Çünki belə olduğu təqdirdə cəmiyyətin qınağı və müvafiq qərarların qəbulu çox təbii görünür.

YENİ MÜSAVAT
N 148 (6762) 15 iyul 2017




# General oğlunun həbsi daha bir cinayəti üzə çıxardı

## Sürücüsü döyülən MMC sahibinin oğlu da avtomobillə adam öldürüb və cəzadan yayınıbmış…

**Avtobus sürücüsünə hücum edən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini Novruzəli Orucovun oğlu Rüstəm Orucovun həbsi gündəmdən düşmür. Baş Prokurorluq generalın oğlunun həbs edilməsi ilə bağlı açıqlamasında bildirib ki, 2017-ci il iyulun 3-də Bakı şəhər sakini Rüstəm Orucov sürücülük hüququndan məhrum olunmasına baxmayaraq, idarə etdiyi "BMW" markalı, Az 10 OG 300 dövlət nömrə nişanlı avtomobillə yol hərəkəti qaydalarını pozduğuna görə ona əsaslı irad bildirmiş sürücü Sənan Səmədovun idarə etdiyi marşrut avtobusunu 8 dayanacaq təqib edərək sərnişinlərin narahatçılığına və insanlarda vahiməyə səbəb olub, vətəndaşların gözü qarşısında bir qrup şəxslə həmin sürücüyə xəsarətlər yetirərək xuliqanlıq edib.**

Baş Prokurorluğun məlumatında həmçinin qeyd edilir ki, Rüstəm Orucov piyadanın ölümünə səbəb olan yol nəqliyyat hadisəsi törədib hadisə yerindən qaçdığına görə hələ 2014-cü ildə 4 il müddətinə azadlıqdan məhrum olub, 2016-cı ildə isə şərti olaraq vaxtından əvvəl azad edilib. Yuxarıda qeyd olunmuş xuliqanlıq hadisəsi də məhz onun şərti azadlıqda olduğu dövrdə baş verib. Faktla bağlı 2017-ci il 4 iyul tarixdə Binəqədi Rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 221.2.1-ci (bir qrup şəxs tərəfindən xuliqanlıq) maddəsi ilə cinayət işi başlanıb. Rüstəm Orucov həmin maddə ilə ittiham olunaraq barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin həqiqi hərbi xidmətə çağırış üzrə müavini, həqiqi hərbi xidmətə çağırış Baş İdarəsinin rəisi Novruzəli Orucov tutduğu vəzifədən azad olunub.

General oğlunun təqib, sonradan vurub xəstəxanalıq etdiyi sürücü "Xaliq Faiqoğlu" MMC-nin 85 saylı marşrutunda çalışıb. Gələn məlumata görə, MMC sahibinin oğlu da general Novruzəli Orucovun oğlundan geri qalmır. Azpolitika.info yazır ki, "Xaliq Faiqoğlu" MMC-nin faktiki sahibi Faiq Seyidovun oğlu Xaliq Seyidov da kübar həyat tərzi keçirməyi xoşlayır.

**Sitat:** "Xaliq Seyidov atasının vergidən yayındırdığı vəsaitlər hesabına özünə bir neçə bahalı avtomobil alıb. Məsələn, iş adamının oğlunun sərəncamında Az 10 LU 090 dövlət nömrə nişanlı "Mercedes GL", Az 10 OF 090 dövlət nömrə nişanlı "Range Rover" və digər avtomobillər var. Xaliq Seyidov bir xeyli bundan öncə paytaxtın Binəqədi rayonu ərazisində yol-nəqliyyat hadisəsi törədib. O, avtomobilini yüksək sürətlə idarə etdiyindən qarşısına çıxan piyadanı vurub. Piyada isə aldığı ağır xəsarətlərdən hadisə yerindəcə keçinib. Xaliq Seyidov heç nə olmayıbmış kimi hərəkət edib və hadisə yerindən qaçıb. Baş vermiş yol-nəqliyyat hadisəsinin üstündən xeyli müddət keçsə də, şirkət rəhbərinin oğlu məsuliyyətə cəlb olunmayıb..."

Həmin yol nəqliyyat hadisəsi 2014-cü ildə "Memar Əcəmi" metro stansiyasına yaxın ərazidə baş verib. Maraqlıdır ki, bu məlumatlar mətbuatda getdikdən sonra da hüquq-mühafizə orqanlarının əməkdaşları biznesmenin oğlunun barəsində heç bir ölçü götürməyiblər. Xaliq Seyidov nəinki həbsə alınıb, heç şərti cəzaya belə məhkum edilməyib.

General oğlu sürücünu vuraraq həbsə düşsə də, holdinq sahibinin oğlunun adam ölümü ilə nəticələnən yol-nəqliyyat hadisəsi törədərək azadlıqda gəzməsi sual doğurmaya bilməz.

Qeyd edək ki, "Xaliq Faiq oğlu" MMC-nin nəzarətində xeyli sayda marşrut xətti var. Bunlar 18, 22, 27, 37, 49, 52, 53, 54, 57, 61, 65, 76, 79, 85, 119, 188, 199 saylı marşrut xətləridir. Bu şirkətin sürücülərinin vətəndaşlarla kobud davrandığı bu yaxınlarda Bakı Nəqliyyat Agentliyinin yaydığı məlumatda da qeyd edilib. Bakı Nəqliyyat Agentliyinin mətbuat xidmətinin rəhbəri Nuridə Allahyarova "APA-Economics"ə bildirib: "Konkret olaraq "Xaliq Faiqoğlu" MMC ilə bağlı bizim əlimizdə digər daşıyıcıların, habelə sərnişinlərin konkret şikayətləri var. Şikayətlərdə şirkətə məxsus avtobusların sürücülərinin kobud qayda pozuntuları, avtobusların müasir standartlara cavab verməməsi qeyd edilib..."

General oğlunun diz çökdürüldüyü qanunun qarşısında Faiq Seyidovun oğlu Xaliq Seyidov da dayandırılmalıdır. Əks halda, növbəti rezonans doğuracaq hadisənin qəhrəmanının adı indidən bəllidir.

❑ E.MƏMMƏDƏLİYEV

# Əli Nağıyev sabiq MTN nazirini "boş şifoner" adlandırdı

## Sabiq nazir Əli Kərimliyə də məsləhət verdi

**Hakim Yeni Azərbaycan Partiyası (YAP) sədrinin keçmiş müavini, sabiq nazir və səfir Əli Nağıyev ölkə.az-a müsahibəsində gələn il Azərbaycanda keçirilməsi gözlənilən prezident seçkisi barədə danışıb. Sabiq nazir deyib ki, Azərbaycanda prezidentliyə çox adam iddialıdır və yəqin gələn il keçiriləcək prezident seçkilərində də bir neçə adam namizədliyini irəli sürəcək.**


Əli Nağıyev

**Əli Nağıyev həmin namizədlərin arasında prezidentliyə İlham Əliyevdən daha layiqlisini görmədiyini bildirib:** "Mən bunu çox dəqiq əsaslandıra da bilərəm. Hələ mən rəhmətlik Heydər Əliyev sağ olarkən demişdim ki, Azərbaycan prezidentliyinə ən layiqli namizəd İlham Əliyevdir. Bu gün də bunu deyirəm. Ancaq çox təəssüf ki, prezident İlham Əliyevin ətrafında bəzi adamlar var ki, onlar oturduqları budağa balta vururlar. Sözsüz ki, onların hamısı getməlidir. Onlar bu milləti və dövləti uçuruma sürükləyənlərdir. Necə ki, bir "içi boş şifoner" olan nazir o boyda vəzifədə otura-otura nə qədər cinayətlər törətmişdi".

**Əli Nağıyev müsahibəsində Milli Şuranın sədri Cəmil Həsənli və AXCP sədri Əli Kərimli haqda da danışıb. O deyib ki, Cəmil Həsənli təki indi oturduğu yerə layiq olsun. Ancaq onun da, Əli Kərimlinin də İlham Əliyevlə müqayisədə prezident olmaq potensialı demək olar ki, sıfıra bərabərdir:** "Prezidenti gərək millət seçsin. Bu gün Azərbaycan seçicisinin neçə faizi Əli Kərimliyə səs verər? Mən hesab edirəm ki, heç bir faizə çatmaz. Çünki bu gün Azərbaycan əhalisinin mütləq əksəriyyəti Əli Kərimlini tanımır. Əli Kərimli özünü başqalarına yapışdırmamalı idi, özünü xalqa təqdim etməyi bacarmalı idi, oba-oba, kənd-kənd gəzib camaatı inandırmalı idi, düz mənəm, mənim dediklərimdir".

Qeyd edək ki, bir neçə gün öncə YAP icra katibinin müavini Siyavuş Novruzov da müsahibəsində növbəti prezident seçkisi, hakim partiyanın seçki hazırlıqları barədə danışarkən hakim partiyanın prezidentliyə namizədi İlham Əliyevə rəqib olmadığını, YAP-ın namizədinə rəqib görmədiklərini bildirmişdi.

Ekspertlərin fikrincə, son günlər tanınmış YAP-çıların bu cür bəyanatlarla çıxış eləmələri köhnə YAP-çıların seçkilərdə kimi namizəd görmək istədiklərini dolayısı yolla ortaya qoymaq cəhdidir.

❑ E.SEYİDAĞA

# Prokuror Lapşinə 6 il 6 ay cəza istədi

## Məhkəmə iyulun 19-da hökmü elan edə bilər

**Belarusda həbs edilərək Azərbaycana gətirilən Aleksandr Lapşin növbəti dəfə hakim qarşısına çıxarılıb.**

Musavat.com xəbər verir ki, həbsdə olan blogger Aleksandr Lapşinin cinayət işi üzrə məhkəmə prosesi Bakı Ağır Cinayətlər Məhkəməsində baş tutub. Hakim Əlövsət Qasımovun sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamçısı çıxış edin. Prokuror Lapşinə 6 il 6 ay cəza istəyib.



Məhkəmə iyulun 19-na təyin edilib.

Qeyd edək ki, Lapşin ötən məhkəmədə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edildiyini etiraf edib. Aleksandr Lapşin 1976-cı il təvəllüdüdür, himayəsində 2 yaşlı övladı var. Rusiya, Ukrayna və İsrailin vətəndaşıdır. Daimi yaşayış yeri isə İsraildədir.

Lapşinin həbsi ilə bağlı yayılan rəsmi məlumata görə, ayrı-ayrı dövlətlərin vətəndaşlığını daşıyan Aleksandr Lapşin Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində yaşayan digər şəxslərlə qabaqcadan əlbir olub cinayət əlaqəsinə girərək, "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında", "Pasportlar haqqında" Azərbaycan Respublikası qanunlarının tələblərini kobud surətdə pozmaqla Azərbaycanın mühafizə olunan dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və nəzarət-buraxılış məntəqələrindən kənarda keçərək, 2011-ci ilin aprel və 2012-ci ilin oktyabr aylarında işğal olunmuş ərazilərə daxil olub.

A.Lapşin qanunsuz rejimin beynəlxalq səviyyədə təbliğ edilməsi məqsədilə internet sosial şəbəkəsində özünə məxsus http//puerrtto.livejournal.com səhifəsində səyahət etdiyi dövlətlər arasında Azərbaycan və Ermənistanla yanaşı, Dağlıq Qarabağı da müstəqil dövlət kimi qeyd etməklə, həmçinin 6 aprel və 29 iyun 2016-cı il tarixli müraciətlərində işğal olunmuş ərazilərdə qanunsuz fəaliyyət göstərən rejimin "müstəqilliyini" dəstəkləməklə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar edib.

Qeyd edək ki, Xarici İşlər Nazirliyi Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfəri ilə əlaqədar Aleksandr Lapşinin adını "arzuolunmaz şəxslər" siyahısına daxil edib.

A.Lapşinin Azərbaycana ekstradisiya edilməsi üçün Baş Prokurorluq tərəfindən Belarus hüquq-mühafizə orqanlarına məlumatlar təqdim olunub.

Lapşin Cinayət Məcəlləsinin 281.2 (dövlət əleyhinə yönələn açıq çağırışlar) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə cinayət işi qaldırılıb və barəsində dövlətlərarası axtarış elan edilib.

**Belarus Baş Prokurorluğu bu il yanvarın 17-də Aleksandr Lapşinin Azərbaycana ekstradisiyası barədə qərar verib.**

❑ İ.MURADOV



# Deyir heç olmazsa sərhədçiləri buraxın...

Zamin HACI
zaminhaci@gmail.com

Yaxud turizmin Azərbaycan konsepsiyası

**Əgər bir gün çaşıb mənim kimi Novxanı tərəflərdə dənizə girmək istəsəniz ehtiyatlı olun. Hər yan Ermənistan-Azərbaycan cəbhəsindən betər halda sərhədlənib, xətlənib, qoruqçular, müşahidə qüllələri qoyulub, projektorlar gecə vaxtı sularda dolaşır, snayperlər bir pullu çimərlikdən başqa pullu çimərliyə azıb keçənləri dənləyir və sairə. Şişirtmirəm qətiyyən. Abşeronda dəniz sahili yay aylarında Lələtəpə və Cocuq Mərcanlıya bənzəyir.**

Bir uzun körpü isə az qala Türkmənistan sahilinə qədər uzanırdı, baş tərəfində külafirəngi-talvar qurulmuşdu. Ayrıca qoruqçusu da vardı. Dedilər bura Masazır bələdiyyəsinin sədri (ya da icra hakimi - dəqiq yadımda deyil) Hacı Filankəsin şəxsi istirahət guşəsidir, vətəndaşlara gərgin xidmətdən sonra gəlir burda oturub hava alır. Ya da durbinlə çimən arvadlara baxır - dəqiq bilmirəm.

İki gün qabaq Torpaq Məcəlləsinə dəyişiklik edildi, orda ictimai çimərliklərə də toxunulmuşdu. Sitat: "İctimai çimərliklərdə sahilboyu 20-50 metrlik zolağın altındakı torpaq sahəsinin dənizin sahilinə gediş-gəlişi məhdudlaşdırmamaq şərti ilə hasara alınma yolu ilə və ya digər üsullarla bağlanmasına o halda yol verilir ki, hasar və ya bağlanma üçün istifadə edilən tikinti konstruksiyaları qəfəsli olmaqla, sahil tərəfdən dənizin və onun sahilində su ilə qurunun təmas xəttinin görünməsini məhdudlaşdırmasın və həmin hasarın və ya tikinti konstruksiyasının sahilboyu uzunluğunun hər 200 metrindən bir dövlət sərhədinin mühafizəsinin təmin olunması məqsədi ilə nəqliyyat vasitələrinin hərəkəti üçün yetərli olan eni 6 metrdən az olmayaraq sahilə birbaşa keçid təmin olunsun". Sitatın sonu. Bir şey anladınızmı? Ancaq qərarı biz anlayaq deyə vermirlər ki. Hər halda, anlamağa çalışaq. Demək, plyajlara çəkilən hasarlar dövlət sərhədini qorumağa da mane olurmuş! Əladır. Eyni zamanda indi hasarı qəfəs şəklində çəkəcəklər ki, sən özünü tam zooparkda duya biləsən.

Bu şəraitdə turizmin inkişafından danışmaq olarmı? Əlbəttə, bu hökumətdə olar. Keçən həftə rəqəm açıqladılar, dedilər ölkəmizə turist axınında 30 faiz artım var. Bəs bu nəyin otuz faizidir? Axı 3 nəfər də çox gəlsə 30 faiz artım sayıla bilər. Ölçü sistemindən, sayandan asılıdır. Ancaq mən o 30 faizi də axtarıb tapdım. Sən demə, bu ilin 5 ayında ölkəmizə 956 min turist gəlib. Keçən ilin uyğun dövründə isə 768 min gəlibmiş. Artan otuz faiz bu imiş. Heç nə demirəm, Gürcüstana 2016-cı ildə gələn turist sayını yazıram: 6 milyon 350 min 825 nəfər.

Sonda temaya uyğun bir oxucu məktubu. Keçən həftə İsveçdən yazıblar:

"Bir ay öncə Avropadan Azərbaycana gəlmişdik, gördüklərimizdən yenə heyrətləndik. Bütün dünya düzəlsə də vətən düzəlmir ki düzəlmir. Biz bu dəfə Masallıda istirahət etmək qərarına gəldik və başımıza gəlməyən oyun qalmadı. Visa və Master Card-la bankomatlardan dollar çəkmək qeyri-mümkündür. Manata da 150 manatlıq gülünc bir limit qoyulub və Masallıdakı 5-6 bankın yalnız ikisindən manat çəkmək olur. Bu bədbəxt turistlər, görəsən, Azərbaycan kimi bahalı ölkədə bankların yanında gecələməlidirlər? 150 manatla 4 nəfərlik turist ailəsi heç hotel pulunu ödəyə bilmir və məcbur olub hər gün dincəlmə zonasından 20 km yol gəlib yenidən bankdan pul çəkməlidir. Alış-veriş mərkəzlərinin çox azında kartla ödəmə etmək olur. Hotel qiymətləri Parisdəki hotel qiymətlərindən də bahadır. Heç bir şəraiti, kondisioneri olmayan otaq üçün Masallı İstisu-da 80-90 manat istəyirlər. Əlavə olaraq yemək-ərzaq qiymətləri 2 dəfə bahadır. Xəstələnsən qanın getdi... Bir sözlə, budəfəki məzuniyyət də belə getdi. Qayıdanda İsveçdəki dost-tanışa bu biabırçılıqları danışdım. Azərbaycana gəlmək istəyənlər də fikirlərindən döndü. Ümid edirəm bu haqda yazacaqsınız. Hörmətlə: Nazim M."

# "İqtidar ABŞ və Rusiya ilə anlaşıb" iddialarına ekspert rəyləri

## "Azərbaycanın Qərbə yaxınlaşmasında Rusiyanın rolu var"



**Amerika-Azərbaycan münasibətlərində əməkdaşlığın canlanması prosesi başlayıb, "Turan" agentliyinin direktoru Mehman Əliyev belə hesab edir. O, "Turan"ın "Çətin Sual" proqramına müsahibəsində deyib ki, Amerika-Azərbaycan münasibətlərinə dair vəziyyəti şərh edərkən deyib ki, tənqidlər və təzyiqlər demək olar daha çox 2015-2016-cı illərdə müşahidə olunub.**

**Azərbaycanda 2016-cı il iyulun 12-də referendum elan ediləndən sonra Azərbaycan hakimiyyətinə qarşı demək olar ki, heç bir təzyiq olmayıb:** "Nəzərə almaq lazımdır ki, ötən il Amerikada prezident seçkilərində Tramp qələbə çalıb. Bununla da Azərbaycan-Amerika münasibətində yeni bir dövr başlayır. Gərginlik daha çox prezident Obamanın dövrünə düşür. Ondan sonrakı dövrdə münasibətlərdə bir staqnasiya (durğunluq) var idi. 2-3 aydır ki, artıq aktivləşmə prosesi başlayıb. Görünür ki, dialoq prosesi gedir. Hesab edirəm ki, İstanbulda İlham Əliyevin dövlət katibi Tillersonla görüşü həmin dialoqun nəticəsi idi. Yəni ondan öncə məsələlər müzakirə olunub, tərəflər bir araya gəlib və bu görüş baş tutub. Həmin görüşdə demokratiya, islahatlar, insan haqları məsələləri də müzakirə olunub. Hesab edirəm ki, bu, Amerika-Azərbaycan münasibətlərində ən mühüm bir gündəlikdir. Azərbaycan 12 istiqamət üzrə "Yol xəritəsi" hazırlayıb və öz həllini gözləyir. İnsan haqları, açıq hökumət və başqa sahələrdə yeni sənədlər hazırlanır. Avropa İttifaqı ilə yeni sazişin hazırlanması prosesi gedir. Struktur islahatları gündəmdədir. Biz görürük ki, iki tərəfin əməkdaşlığı var və Amerikanın əsas məqsədi Azərbaycanda və başqa regionlarda təkamül yolla, sülh yolu ilə demokratiyaya keçidin təmin olunmasıdır. Bu proses baş verir və tərəflər məsələdə yekdil bir mövqedədirlər".

**M.Əliyev ABŞ və Rusiyanın regionda açıq şəkildə toqquşmasının görünmədiyini də bildirib:** "Hamburqda Trampla Putin arasındakı görüşün nəticələri iki tərəfdən, əsasən də ruslar tərəfindən daha optimistik, daha müsbət qiymətləndirilib. Bu, onu göstərir ki, tərəflər arasında geniş spektr məsələlər ətrafında vahid bir mövqe var. Qeyd olundu ki, yalnız Şimali Koreya üzrə bir araya gələ bilməyiblər. Bu, onu göstərir ki, qalan bütün məsələlər üzrə razılaşıblar, o cümlədən Cənubi Qafqazın adı səslənməsə də, daha çox Ukrayna və Suriya məsələsini vurğuladılar. Amma Tillersonla İlham Əliyevin görüşü onu göstərir ki, Hamburqda hansısa bir danışıq olub və bu danışığın nəticəsində İstanbul görüşü olub. Ermənistan tərəfi bəyan edib ki, bu ilin noyabrında Brüsseldə Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində Avropa İttifaqı ilə yeni bir sazişin imzalanmasına hazırlaşır. Qeyd edirlər ki, artıq Rusiya buna xeyir-dua verib. Bu, onu göstərir ki, Rusiya, o cümlədən Azərbaycanın da Avropa İttifaqı ilə yeni sazişin imzalanmasına etiraz etmir. Bu, yeni bir vəziyyətdir, yeni bir dövrdür. Burada tərəflərin mövqeləri daha da yaxınlaşır. Əslində bu, Azərbaycanın milli maraqlarına uyğundur".

**Politoloq Elşən Mustafayev** isə hesab edir ki, ABŞ-la Rusiyanın Azərbaycan siyasətində uzlaşma və ya razılaşma olduğu barədə, sadəcə, görüntü var. Əslində isə vəziyyət fərqlidir. E.Mustafayev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, əslində son zamanlar Azərbaycanın ABŞ-la və Avropa İttifaqı ilə münasibətlərində yaxınlaşmanın baş verməsində Rusiya ilə Azərbaycan hakimiyyəti arasında soyuqluğun yaşanması, Moskvadan Azərbaycana təzyiqlərin artması da rol oynayır. Rusiya Azərbaycanı müxtəlif istiqamətlərdə sıxdıqca, Ermənistana dəstəyi artırdıqca Azərbaycan Qərblə yaxınlaşır: "Bu gün ABŞ-la Azərbaycan arasında münasibətlər həmişə bəlli çərçivənin içərisində artan və azalan xətt üzrə gedib. Hazırda həmin münasibətlər artan xətt üzrədir. Bunda Rusiya amilinin təsiri var. Qərblə yaxınlaşmada Rusiya ilə hər hansı razılaşmadan söhbət gedə bilməz. Əksinə, bu münasibətlərdən Rusiya həmişə qıcıqlanıb. Məlumdur ki, son zamanlar Kremllə rəsmi Bakı arasında münasibətlərdə hiss olunacaq qədər soyuqluq yaranıb. Bu soyuqluq Rusiyanın Azərbaycan əleyhinə atdığı bir sıra addımlarla özünü daha qabarıq göstərmişdi. Məhz bu ərəfədə ABŞ-la münasibətlərin dinamikasında artım hiss olunmağa başladı. Rusiya bu münasibətlərin artmasında Avropa İttifaqı ilə əlaqələrin genişlənməsində heç vaxt maraqlı olmayıb, inanmıram ki, bundan sonra da maraqlı olsun. Yaxud bu məsələ ilə bağlı Rusiyanın razılaşmasına, neytral qalmasına da inanmaq olmaz".

Ekspertin sözlərinə görə, Cənubi Qafqazda, xüsusilə Azərbaycanda Qərbin mövcudluğunu, aktivliyini Rusiya heç vaxt qəbul etməyib. Odur ki, ABŞ-la, Avropa İttifaqı ilə münasibətlər daha da artan xətt üzrə gedərsə, Moskva bunu bütün imkanları ilə dayandırmağa cəhd edəcək. Burada Dağlıq Qarabağla bağlı şirnikləndirici vədlərdən tutmuş, təhdidlərə qədər hər şey ola bilər. Belə halın baş verməsi birinci dəfə deyil. Amma əvvəlki təcrübələrdən yararlanaraq prosesi Azərbaycanın maraqları çərçivəsində davam etdirmək mümkündür. Belə hallarda təhdidlərin də bir nəticəsi olmayacaq.

❑ Etibar SEYİDAĞA

# Rusiya səfiri Azərbaycan diaspor təşkilatını ittiham etdi

## Vladimir Doroxin: "Bütün təşkilatlar mövcud olduqları ölkənin qanunvericiliyinə uyğun fəaliyyət göstərməlidirlər"

**Ümumrusiya Azərbaycan Konqresi (ÜAK) ilə bağlı problemin Rusiyanın siyasəti ilə heç bir bağlılığı yoxdur. Virtualaz.org bildirir ki, bunu Rusiyanın Bakıdakı səfiri Vladimir Doroxin Azərbaycandakı rus icmasının konfransında deyib. V.Doroxin qeyd edib ki, Konqresin hüquqi dəstəyini təmin etməli olan şəxslər bu işin öhdəsindən gəlməyiblər.**



**Səfirin sözlərinə görə, onlar ÜAK Rusiya Ədliyyə Nazirliyi tərəfindən dəfələrlə qeydiyyat məsələsi ilə bağlı xəbərdarlıq alsalar da, buna reaksiya verməyiblər:** "Bizim fikrimiz budur ki, bütün təşkilatlar mövcud olduqları ölkənin qanunvericiliyinə uyğun fəaliyyət göstərməlidirlər. Rusiyanın Azərbaycanda fəaliyyət göstərən bütün təşkilatları Azərbaycan qanunvericiliyinə riayət edir".

**Rusiyalı diplomat deyib ki, RF üçün Azərbaycanla münasibətlər böyük dəyər kəsb edir:** "Və ümid edirik ki, bu insident bizim münasibətlərə heç bir mənfi təsir göstərməyəcək".

YENİ MÜSAVAT
N 148 (6762) 15 iyul 2017

### Azərbaycan müdafiə nazirinin Rusiya agentliyinə sensasion müsahibəsinin pərdəarxası



# Zakir Həsənovdan şok mesajlar: xəbərdarlıqlar kimlərədir?

## **Nazir aprel döyüşlərinin pərdəarxası məqamı barədə:** "Aprel döyüşlərinin artıq ikinci günündə Rusiyanın müdafiə naziri Şoyqu zəng vurdu, dedi ki..."; "Ermənilər, əgər heç kəs işə qarışmasa, heç üç gün davam gətirməyəcəklər", deyən müdafiə nazirinin mesajlarının kodlarında nələr var?; **Ekspertlər:** "Ermənistan çaşqınlıq içərisindədir..."

**Xəbər verildiyi kimi, Azərbaycanın müdafiə naziri Zakir Həsənov Rusiyanın dövlət agentliyi olan "RİA-Novosti"yə müsahibə verib. Bu, nazirin xarici KİV-lərə verdiyi ilk geniş müsahibədir. Zakir Həsənov müsahibədə cəbhədə baş vermiş son insidentlərdən, Rusiya ilə hərbi-texniki əməkdaşlıqdan, ötən ilin aprel döyüşlərindən və digər məsələlərdən danışıb.**

**Nazir Zakir Həsənov bildirib ki, ermənilər bilir ki, əgər heç kim işə qarışmasa, heç üç gün də Azərbaycan ordusunun qarşısında davam gətirə bilməyəcəklər. Nazir deyib ki, 2016-cı ilin aprelində də belə oldu. Əgər onda bizi dayandırmasaydılar ermənilərin müqavimətlərini artıq sındırmışdıq. Düşmənin uzun illər boyu möhkəmləndirdiyi müdafiə xəttini biz cəmi 40 dəqiqəyə yarıb keçdik:** "Ən böyük qarşıdurma 2016-cı ilin aprelində oldu. Səbəb isə mülki əhalinin atəşə tutulması idi. O vaxt, aprelin 1-də ermənilərin artilleriya zərbəsi nəticəsində Tərtərdə bütöv ailə həlak oldu, maşının içində. Təbii ki, bu haqda mənə məruzə etdilər. Bu, haradasa saat 10, yaxud 11-in yarısı idi. Və ermənilərin həmin mövqelərinin yüksəkliklərdə yerləşməsini və oradan bütün kəndi, ətraf əraziləri nəzarətdə saxladıqları nəzərə alınaraq qərar qəbul edildi ki, atəş nöqtələrini yaşayış məntəqələrindən kənarlaşdıraq. Məqsəd tammiqyaslı müharibə başlamaq deyildi. Bu əməliyyatlara bizim ordumuzun cəmi 15-20 faizi cəlb olunmuşdu. Mən hətta ehtiyat qüvvələri və mərkəzi komandanlığa tabe olan artilleriyanı da cəbhəyə yeritmədim. Ordu həmin vəzifənin öhdəsindən gəldi, Ermənistan silahlı qüvvələrini yaşayış məntəqələrindən geriyə çəkilməyə məcbur etdi. Ermənistan isə buna elə reaksiya verdi ki, sanki müharibə başlayıb. Onlar bütün silahlı qüvvələrini döyüşə atdılar. İrəvandan ehtiyat qüvvələr cəlb olundu. Üç gün ərzində onlar bizim mövqelərə hücum etdilər. Hərçənd döyüşlərin artıq ikinci günündə Rusiyanın müvafiq strukturları vasitəçilik fəaliyyətinə başlamışdı. Məsələn, mənə Rusiyanın müdafiə naziri, ordu generalı Sergey Şoyqu zəng vurdu. O dedi ki, "bu işi" dayandırmaq lazımdır, ölkə rəhbərləri bu haqda danışacaqlar. Habelə Rusiya silahlı qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Valeri Gerasimov bizim Baş Qərargah rəisinə zəng vurdu.

Daha sonra artıq bəlli oldu ki, erməni tərəfi fürsətdən istifadə edib vaxt udmaq, yenidən qruplaşmaq və zərbə endirmək istəyir. Lakin bu da onlarda alınmadı. Prinsipcə, biz qarşımıza hansı vəzifəni qoymuşduqsa, onu yerinə yetirdik-iki strateji yüksəkliyi azad elədik. Cəbrayıl istiqamətində Lələtəpə yüksəkliyini və şimal istiqamətində Talış yüksəkliklərini".

Nazir qeyd edib ki, son illərdə Ermənistan qoşunları ilə təmas xətti boyu gərginlik artan xətt üzrə gedir. Səbəb bir-dir-Azərbaycan ərazilərinin işğalı. Bütün qalanlar nəticədir. İşğal edilmiş ərazilər azad edilmir, danışıqlar heç bir nəticə vermir. Təbii ki, belə vəziyyətdə qoşunların təmas xəttində vəziyyət gərginləşir, hərdən lokal toqquşmalar olur-bu da normaldır. Nə qədər ki, iki düşmən ordu üz-üzə dayanıb, belə olacaq. Lakin zərbə məqsədli şəkildə yaşayış məntəqəsinə endirilirsə bu, artıq cinayətdir.

**Zakir Həsənov bəyan edib ki, Azərbaycan rəhbərliyi başda Ali Baş Komandan İlham Əliyev olmaqla, ordunun gücləndirilməsinə, onun ən yeni silahlarla təchizatına böyük diqqət ayırır. Biz keyfiyyətcə yeni mərhələyə çatmışıq. Son illərdə ordunun modernləşdirilməsi, gücləndirilməsi vəzifəsi qarşıya qoyulub:** "Bizim ölkəmiz məsələnin dinc yolla həllinə sadiqdir. Lakin bu o demək deyil ki, danışıqlar sonsuzadək davam etməlidir, danışıqlar onsuz da çox uzanıb. Danışıqlar naminə danışıqlar heç kimə gərək deyil. Üstəlik, ətrafa baxın - beynəlxalq qanunlar işləmir, hamı gücə stavka edir. Təbii ki, biz də buna reaksiya verməliyik. Lakin təkrar edirəm, mən siyasətçi deyiləm, hərbçiyəm".

Nazir Azərbaycanla Rusiya arasında 2010-cu ilin əvvəllərində bağlanmış irimiqyaslı silah alınması müqaviləsinin 90 faizinin yerinə yetirildiyini, müasir hərbi texnikanın hamısının Azərbaycana alınıb gətirildiyini, elə həmin silahların da sayəsində ötən ilin aprelində uğur əldə etdiyimizi vurğulayıb.

Z.Həsənov müsahibəsində onu da bildirib ki, rəsmi Bakı Suriyada ruslar tərəfindən keçirilən əməliyyat təcrübəsini öyrənir və Rusiya Müdafiə Nazirliyi tərəfindən təqdim edilən məlumatların öz regionunda tətbiq edilməsini nəzərdən keçirir və bu barədə Sergey Şoyqu ilə də fikir mübadiləsi aparılıb.

Nazir Zakir Həsənovun müsahibəsindən hansı nəticələr çıxarmaq olar? Nazirin "bizi dayandırmasaydılar, məsələ həll olacaqdı" şəklində açıqlaması nələrə işarədir?

**Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a bildirdi ki, nazir Zakir Həsənovun Rusiyanın dövlət agentliyinə - "RİA-Novosti"yə verdiyi müsahibə son dövrlərin ən ciddi hadisələrindən biri sayıla bilər. Bu günədək nə ölkə, nə də xarici mediada Azərbaycanın müdafiə nazirlərinin bu qədər ciddi məqamları əhatə edən müsahibəsinə rast gəlinməyib. İlk hadisə olduğu üçün də, təbii ki, ciddi maraq doğurub. Müsahibə Rusiyanın dövlət agentliyi tərəfindən götürüldüyü üçün Ermənistanın reaksiyası nəzərə çarpmır. Yalnız Ermənistanın müxalif mövqedə dayanan və kənardan idarə olunan informasiya portalları Azərbaycan müdafiə nazirinin müsahibəsinin bəzi məqamlarına yer ayırıb:** "Ermənistanın adətən vahid komanda ilə hərəkətə gələn şərhçilərinin də səsi çıxmır. Görünən odur ki, işğalçı ölkə çaşqınlıq içərisindədir. Müdafiə nazirinin müsahibəsində ən önəmli məqamlardan biri Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının digər üzv ölkələrini də öz təxribatlarının əsirinə çevirməsi ilə bağlıdır. Zakir Həsənov deyir ki, əgər heç kəs işə qarışmasa, ermənilər heç üç gün davam gətirməyəcəklərini yaxşı bilirlər. Bu, kifayət qədər açıq və birmənalı mesajdır və həm Ermənistana, həm də KTMT üzvü olan ölkələrə və təbii ki, ilk növbədə Rusiyaya ünvanlanıb. Bu fikirlərin Rusiyanın dövlət agentliyində yer alan müsahibədə ifadə olunması fərqli aspektlərdən dəyərləndirilə bilər. Təbii ki, bu yanaşma ilk növbədə Azərbaycanın mövqeyini ifadə edir və Ali Baş Komandanın bu günə qədər səsləndirdiyi bəyanatların bəzi tezislərinin müdafiə naziri tərəfindən təkrar ifadə olunmasıdır. Bu fikirlərin Rusiyanın dövlət agentliyi tərəfindən yayımlanmasını isə Ermənistanın siyasi rəhbərliyi ola bilsin ki, dolayısıyla həm də Moskvanın xatırlatması kimi qəbul edə bilər. Yəni "əlimizi üzərinizdən çəksək Azərbaycan sizi 3 günə məhv edə bilər". Şübhəsiz ki, bu barədə konkret fikir söyləmək çox çətindir. Amma onu da qeyd edim ki, bu fikri Sergey Şoyqunun zəngi ilə bağlı məsələ də müəyyən dərəcədə əsaslandırır.

Nazirin müsahibəsində baş verən təxribatların bilavasitə Azərbaycan torpaqlarının işğal altında olmasından qaynaqlandığını vurğulaması da diqqət çəkir. Bu isə o deməkdir ki, hərbi əməliyyatlar müəyyən müddətə dayandırıla bilər, əsas məsələ işğal faktı ilə bağlıdır. Yerdə qalan nə varsa təfərrüatdır. Bu baxımdan da Rusiya gərginliyə səbəb olan amilin-işğalın aradan qaldırılmasına dəstək verməlidir. İşğalın doğurduğu nəticələrin müvəqqəti olaraq aradan qaldırılması problemin həlli deyil".

**Politoloq hesab edir ki, nazirin Rusiyanın Suriyadakı təcrübəsinin öyrənilməsi, dünyada hamının gücə istinad etməsi və Azərbaycanın da bu reallığa reaksiya verməsi ilə bağlı fikirləri də çox ciddi mesajlardır:** "Müsahibədə diqqət çəkən məqamlardan biri də 2016-cı ilin aprelində baş verən hərbi əməliyyatlar zamanı uğurun əldə olunmasında Rusiya silahlarının da payının olması ilə bağlı fikirlərdir. Müsahibə münaqişənin həlli ilə bağlı yaranmış vəziyyəti və Azərbaycanın mövqeyini ifadə edən fikirlərlə zəngindir və təbii ki, bütün məqamlara toxunmaq mümkün deyil. Bunun Rusiya ilə hər hansı bir razılaşmadan qaynaqlandığını isə düşünmürəm. Rusiya ilə bağlı məsələlərdə yalnız mövcud faktlara istinad etmək daha doğru olar. Mənə görə, Rusiyanın yalnız konkret zaman kəsiyindəki maraqlarına uyğun şəkildə hərəkət edir. Bu maraqların indiki məqamda nələrdən ibarət olduğunu yalnız ehtimal etmək olar. Ola bilsin ki, Moskva danışıqlar prosesində dinamika əldə etmək, hansısa qısamüddətli strateji planlarını həyata keçirmək istəyir. Yaxud sadəcə, öz silahlarını satmaq, Azərbaycanın artan hərbi gücü qarşısında Ermənistanı özünə daha çox bağlamaq istəyir. Və ya Rusiyada keçiriləcək prezident seçkiləri öncəsi paralel olaraq Avrasiya İttifaqı və digər layihələrin perspektivi ilə bağlı müsbət təbliğat fonu yaratmaq niyyətindədir. Ehtimalların sayını artırmaq olar, amma önəmli olan odur ki, Rusiyanın dövlət agentliyinin vasitəsilə Azərbaycanın hərbi gücünün üstünlüyü etiraf olunub, hətta "İsgəndər" raketlərinin belə Ermənistanı qoruya bilməyəcəyi işğalçının diqqətinə çatdırılıb. Bütün bunlarsa çox ciddi amillərdir".

**Hərbi ekspert Üzeyir Cəfərov isə bildirdi ki, müdafiə naziri Zakir Həsənov müsahibəsində çox uğurlu bir yanaşma ortalığa qoyub:** "İndi hərə öz prizmasından, öz mövqeyindən bu müsahibəyə şərh verməyə çalışır. Mən isə bir qədər fərqli mövqedəyəm. Yəni Azərbaycan tərəfinin qarşı tərəfə, həmçinin ATƏT-in bivec Minsk Qrupuna yönəlik də xeyli açıqlamalar və mesajları görmək mümkündür. Daha çox Rusiyaya yönəlik açıqlama var ki, əgər 2016-cı ilin aprel ayında siz xahiş etməsəydiniz, bəlkə də bu gün tamam başqa mənzərə olacaqdı ortalıqda. Nazir bununla Moskvaya demək istəyir ki, siz Ermənistan tərəfinin xahişini etdiniz, biz də sizi eşitdik və ümid edirdik ki, bu müddət ərzində siz işğalçı ilə lazım olan söhbətləri edəcəksiniz ki, o ağıllansın və Azərbaycanın işğal altındakı ərazilərindən geri çəkilsin, faktiki isə ortalıqda heç nə yoxdur. Nazirin "danışıqlar prosesində heç bir irəliləyiş yoxdur" sözləri də məhz bu anlama gəlir. Müdafiə naziri Rusiyanı fəal olmağa, Azərbaycan kimi mühüm strateji müttəfiqini bir çox sahələr üzrə itirməməyə çağırıb. Eyni zamanda Zakir Həsənov Qarabağ münaqişəsi ilə bağlı tez bir zamanda qəti qərarlar qəbul edilməsinin də vacibliyini dilə gətirib. Düşünmürəm ki, bizim nazir bu açıqlamaları ilə Rusiyanın demək istədiklərini Ermənistan tərəfinə çatdırıb. Əksinə, bəlkə də rəsmi Moskva üçün düşünməkdən ötəri bir sıra vacib məqamlar var ki, indi onlar da yəqin bu açıqlamaları incələməkdədirlər. Vəziyyət isə həqiqətən də gərginləşməkdədir. Azərbaycan tərəfi elə boş yerdən bu narahatçılıqları dilə gətirmir. Düşmən demək olar ki, bütün mümkün olan və olmayan cizgiləri keçib. Bizim nəyin bahasına olursa olsun bu məsələni həll etmək üçün əməli addımlar atmaqdan başqa çıxış yolumuz qalmır. Biz hələ də tez bir zamanda rəsmi Moskvanın İrəvana təsir göstərəcəyinə ümid edirik. Reallıqda isə vəziyyət heç də qarşı tərəf üçün əlverişli şəkildə getmir. Sonrası isə onlar üçün çox acınacaqlı və faciəvi nəticələrə gətirib çıxara bilər".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 148 (6762) 15 iyul 2017

**Uzaq üfüqlərdə, razılaşın, artıq növbəti Qarabağ savaşının səs uğultusu, alov sütunları görünməkdədir. Artıq bəllidir-bu köhnə müharibənin yeni mərhələsi əvvəlkindən xeyli seçiləcək. Müharibə iştirakçıları arasında görəcəksiz, bu dəfə əsas yük düşəcək "Özəl hərbi hissələr" üzərinə.**





Krasnodarın Molkino poliqonunda öz əsgərlərinə təlim keçən Dmitriy Utkin ötən il Kremldə bir dəstə hərbiçi tərkibində Vladimir Putinlə görüşüb. Hərbiçinin yaxasına "Rusiya qəhrəmanı" medalını, deyilənlərə inansaq, şəxsən Putin özü sancıb. Mərasimin fotoları indi bütün Rusiya mətbuatında tirajlanır.

# Özəl hərbi şirkətlər: yeni Qarabağ savaşına onlar da qatıla bilər

## Müharibənin taleyinə təsir edə biləcək ödənişli qeyri-rəsmi birləşmələr haqda nə bilirik?..





Müharibə ilk növbədə həm də böyük, gəlirli biznes sahəsidir. Özəlləşmə kabusu artıq bu sahəni də öz çərçivələri əhatəsinə almaqdadır son zamanlar. Dünya piyasasında indi "Özəl hərbi hissələrə" ciddi tələbat yaranıb. Milyardlar indi bu şirkətlərin bank hesablarına, şişman cüzdanlarına axıdılır.

### Yaxşı, nədi bu belə "Özəl hərbi hissələr"?

DOSYE: Özəl hərbi hissələr. Dünya tarixində ilk şəxsi, özəl hərbi hissə 1967-ci ildə Böyük Britaniyada, polkovnik Devid Sterlinqin rəhbərliyi altında yaradılıb, biləsiz. Sonralar oxşar təcrübə ABŞ ordusunda həyata keçirilib. "Vinnell Corp." adlı bu özəl, şəxsi hərbi hissə 1974-cü ildən üzübəri Səudiyyə Ərəbistanında xüsusi, tam məxfi şəkildə fəaliyyət göstərib. Şirkətin bank hesablarına ilk 500 milyon dollarlıq pul çeki 1974-cü ildə daxil olub. "Vinnell Corp."un Səudiyyə Ərəbistanındakı məxfi missiyası qoşa qanadlıdır - şirkət təkcə ər-Riyadın Milli Qvardiyasını gələcək döyüşlərə hazırlamaqla kifayətlənmir. Həm də bu ölkənin zəngin neft-qaz yataqlarını yadelli təxtribatçılardan qoruyur.

Pentaqon bu sahədə ilk ürkək addımlarını 1976-cı ildə, Anqola cəngəlliklərində atsa da, istədiyi nəticəni ala bilmir bu özəl qoşun hissələrindən. Anqoladakı vətəndaş müharibəsini böyük hesab fərqi ilə SSRİ-yə uduzur. Əsir alınmış muzdlular üzərində o vaxt Anqolada bir məhkəmə prosesi də keçirilir hətta. Bəlli olur ki, təkcə elə 96 Britaniya vətəndaşı qanunsuz olaraq bu müharibədə iştirak edərək öz bank hesablarını doldurub.

1999-cu ildə Pentaqon rəhbərliyi özünün tam məxfi "FM 100-21" qərarı ilə vəziyyəti hüquqi müstəvidə həll edir. "İnnən belə biz öz bütün qanlı əməliyyatlarımızı özəl şirkətlərin əliylə həyata keçirəcəyik" - Pentaqon rəsmisinin bu səmimi etirafı, yadda saxlayın, məhz həmin vaxtlar mətbuata sızdırılıb.

**SİFARİŞLƏRİ:** Özəl hərbi qoşunların indiki sifariş zənbili deyərdim az deyil, artıq 100 milyarddan çoxdu bəlkə də. Misal üçün, İraqdakı xarici özəl qoşunlar "Private Security Company Association of Iraq" (PSCAI) təşkilatında birləşib yaxşı pul qırpırlar Pentaqon xəzinəsindən. Özəl qoşunların bir başqa bol yeri Əfqanıstandı. 2012-ci ildə bu başıbəlalı ölkədə özəl qoşunlar ABŞ ordusunun 10 faizini təşkil edib.

Şəxsi orduların sevib bəyəndiyi bir başqa ünvan isə qardaş Gürcüstandı. Artıq heç kimə sirr deyil - 2008-ci il Cənubi Osetiya müharibəsinə qədər, bu ölkədə "Defensive Shield", "Global Comprehensive Security Transformation", "Cubic" "MPRI" və nəhayət, "American Systems", "Nirtal", habelə "Kellog, Brown and Root" kimi ABŞ, İsrail şəxsi ordu hissələri, mütəxəssisləri fəaliyyət göstərib. Əməkdaşlıq indi özünə ikinci nəfəs qazanıb elə bil. Rəsmi Tiflis, öz hərbi strategiyasını məhz bu məxfi ordu hissələri üzərində qurub indi.

**LİVİYADAKI CİNAYƏTLƏRİ: Qərb dövlətləri Müəmmər Qəddafiyə qarşı öz gizli cinayətlərində məhz bu özəl hərbi qoşunlardan geniş istifadə ediblər. Mətbuatda deyilir:** "Fransa, Britaniya xüsusi təyinatlıları Liviya sahillərinə çıxınca hərbi fərqlənmə nişanlarını üstlərindən söküdülər. Özəl şəxsi qoşunların rəmzlərini sinələrinə, qollarına həkk edib cumdular Qəddafinin iqamətgahına. 2012-ci ilin may ayında Benqazi uğrunda gedən döyüşlərdə deyirsiz Fransa muzdlularının başçısı, "Secepex" şirkətinin başçısı təsadüfən həlak olub, hə? Deməzdim. Qısası, Liviya, İraq, Yəmən, Suriya kimi qaynar nöqtələrdə Qərb dünyası "ilanı Seyid Əhməd əliylə tutmağa" üstünlük verir indi. "Seyid Əhməd" dedikdə biz, sözsüz, ilk olaraq məşhur "Blackwater Security Consulting", "Erinys Iraq Limited" kimi ABŞ özəl hərbi hissələrini nəzərdə tuturuq. Müasir İraqın neft-qaz yataqları, boru kəmərləri bu özəl şirkətlər tərəfindən qorunur indi. Şirkətə qarşı İraqda kütləvi xalq nifrətini mövcuddu. Onu ən ağır cinayətlərdə, soyğunçuluqda ittiham edirlər. Misal üçün, 2004-cü ildə başsız insan kütləsi, İraqın əl-Fəlluca şəhərində bu şirkətin 4 üzvünü ələ keçirib sonra amansızcasına dar ağacından asıb. 2007-ci ildə şirkətin cinayət limiti tükənir lap. Şirkət muzdluları, Bağdadın ortasında günün günorta vaxtı xeyli iraqlının avtomat silahlarla darayıb şəhəri al-qana boyayırlar. Vəziyyəti "rusca" görən Pentaqon ikiəlli yapışır öz başından. Qərara gəlir izləri azdırmaq üçün şirkətin adını "Xe Service", "Akademi" şəklində dəyişsin. Xoş nəticə özünü çox da gözlətmir bundan sonra. Şirkət 500 milyonluq bir müqavilə qarşılığında İraq ordusunun təlimlərinə qatılır.

### Şirkətin, yadda saxlayın, Daşkənddə məxfi şöbəsi mövcuddu..

**MƏXFİ SİYAHI:** İlk sırada "DynCorp" şirkətidir. ABŞ-ın Strateji Neft Rezervini məhz bu şirkətin əskərləri qoruyur.

Kabuldakı ABŞ səfirliyini, habelə Əfqanistan prezidentini, maraqlıdı, sən demə, eyni "Triple Canopy" şirkəti qoruyur. BMT-nin İraq və Əfqanıstandakı təhlükəsizliyi isə "Kroll" özəl hərbi şirkətinə tapşırılıb.

Siyahıdakı ilk top-onluğa həm də İsrailin "Levdan" şirkəti daxildi. Uzaq Afrika qitəsində bir çox milli ordu modelləri məhz bu şirkətin boz şinelindən çıxıb. Misal üçün, Konqo ordusuna əvvəl belçikalılar model verib. Sonra britaniyalılar, fransızlar. Hətta rusların belə bu ordunu ordu etmək arzusu, - daha nə deyim - alınmayıb. İsrail mütəxəssisləri isə nəhayət, şeytanın qıçını qırıb bu sahədə az-maz uğur qazanıblar.

**HƏRBİ TƏRCÜMƏÇİLƏR:** Bu strateji mühüm sahədə bütün pulları qatlayıb cibinə qoyan bircə şirkət tanıyıram bizim bu sarsaq dünyada. ABŞ-ın "CACİ" hərbi tərcüməçiləri dünyada yekdilər. Pulunu ver, gör sabahısı gün qapında ermənicə, azərbaycanca danışan nə qədər nadir mütəxəssis toplanıb.

**HƏBSXANALARIN MÜHAFİZƏSİ:** Uluslararası "Titan Corporation" şirkəti bir növ bizim müasir Pentensiar Mühafizə Xidmətini yada salır. Qoruduqları məhbəslərdən quş quşluğu ilə qaça bilməz. Misal üçün, dünya çapında məşhur bəzi terrorçuları məhz bu şirkətin yaraqlıları qoruyur.

**XARİCİ "ANAMA"LAR:** Bizdə, misal üçün, partlamamış hərbi sursatları döyüş meydanlarından bircə şirkət yığır. Xaricdə beləsi bir deyil, iki deyil... Əlifbadakı hərflərin sayı qədərdi: RONCO, MAG, BACTEC, Armor Group, Minetech, EODT və s. i. və ilaxır.

**AVİAKƏŞFİYYAT:** Bu sahədə sözsüz lider "AirScans Inc.", "Eagle Aviation Services & Technology" hərbi şirkətləridir. Pulunu ver, gör sabah bu şirkət Qarabağdakı erməni atəş nöqtələrinin dəqiq koordinatlarını bizə necə bittə-bittə ötürür.

**MƏŞHUR İSİMLƏR:** Dünya mətbuatında oturuşmuş qaydalar var-özəl hərbi şirkətlərin məxfi üzvləri adətən bir ağızdan "vəhşi qaz" adlanır. Vəhşi qazlar siyahısında ən məşhuru fransız Bob Denardı, bir də britaniyalı Maykl Hoar. Sonuncunun xatirələrində misal üçün, əsirlərin qazanda bişirilməsi kimi işgəncə epizodu mövcuddu. Belə yerdə bizə qalır ancaq "Heyvanına şükür, Allah!" ifadəsini işlətmək, vəssalam.

**Xüsusi qeyd: məşhur Marqaret Tetçerin oğlu Mark da deyilənə görə, özəl hərbi şirkətlərlə sıx əməkdaşlığa cəlb edilib. Hələ anasının sağlığında o, Zimbabvedə dövlət çevrilişinə cəhd göstərib. Xainlik olmasa, bəlkə bu Mark Zimbabvedə hakimiyyət kürsüsündə əyləşmişdi indi. Anasının işini burda uğurla davam etdirirdi. Ancaq planlaşdırılan qəsd alınmır. Markı həbs edib xüsusi təyyarə ilə Londona, anasının yanına göndərirlər.**

**RUSİYA NÜMUNƏSİ:** Rusiya Federasiyasında oxşar şöhrət çələngini öz boynunda "Vaqner" çağırış kodlu Dmitriy Utkin daşıyır. O deyir: "Biz hücuma adətən ön sıralarda gedirik, arxamızdakı uşaq-muşaqlar qorxa-qorxa, başlarını əyə-əyə bizi müşayiət edirlər. Əmək haqqımız yüksəkdi - hərbi əməliyyatlar zamanı ayda 240 min rubl qazancımız olur bəzən".

"Vaqner"in başı döyüşlərə o qədər qatışıb ki, o hətta öz halal arvadı Yelena Şerbininanı unudub tam. Arvad yazıq, məcbur qalıb Mərkəzi TV-dəki "Məni axtar" verilişinə müraciət etsin. Efirdə göz yaşlarını saxlaya bilməyib. Dmitridən insafa gəlib evə qayıtmağını xahiş edib. Yəni bu məxfi insanı Rusiyada bir jurnalistlər çox axtarır, bir də halalca həyat yoldaşı.

**ADSIZ MƏZARLAR:** Suriyaya rus müdaxiləsindən sonra bu ölkədə adsız məzarların sayı günbəgün artmaqdadır. Misal üçün, ötən ilin martında Moskvanın Balaşixa qəsəbəsində bir neçə adsız məzar peyda olub. Dəfn edilənlərdən birinin Sergey Çupov olduğunu jurnalistlər sonradan öyrənirlər. Mövzunu mətbuatda müzakirəyə çıxardırlar. Bəlli olur ki, belə adsız məzarlar Rusiyada son zamanlar artan xətt şkalası üzrə xeyli çoxalıb. Yeni Suriyadakı əsas qanlı əməliyyatları Rusiya Müdafiə Nazirliyi özəl hərbi strukturlar xətti ilə həyata keçirir. Rəsmi məlumatlarda səsləndirilməyən bu statistika məxfidi. Yeddi möhür arxasında arxivlərdə gizlədilir.

**TƏLƏBLƏR:** Rusiya özəl hərbi şirkətlərinin namizədlərə tələbi sadədir. Bəzilərinin sifətində hətta gülünc ifadəsi doğura bilər: əvvələ, səndən avtobioqrafiyanı soruşurlar. Soraq tuturlar snayprsən, yoxsa topçu. Deyirlər, sənədlərini təhvil ver, sağ qalsan qayıdıb özünlə götürərsən. Sosial şəbəkələrdə fəallıq da burda təşviq olunmur. Narkomanlıq, içki aludəçiliyi kökündən inkar edilir. Əsas tələb xarici pasportdu. Hə, unutmuşdum az qala, bir də son iş yerindən arayış. Tibbi sənədlər, əvvəllər məhkum olmadığın barədə məlumat.

***

**Qayıdıram yazımın əvvəlindəki əsas fikrimə. Bəli, bir də bəli. Sabah Qarabağdakı döyüşlərində özəl hərbi qoşunların iştirakı istisna deyil. Misal üçün, Rusiyanın "E.N.O.T. Corp" özəl hərbi şirkəti sənədlərdə milli-vətənpərvərlik klubu kimi göstərilir. Rəhbəri gör kimdi? - məşhur separatçı, LNR, DNR yanlısı A. Boroday! Mətbuat, yadda saxlayın, adətən onun adını FSB ilə yanaşı çəkir həmişə. Siyahıda nədənsə Dağlıq Qarabağın da adı mövcuddu. Könüllülərə hərdən deyilir ki, siz bu ünvana da gedib orda yaxşı pul qazana bilərsiz. Demək, bu sahədə biz ayıq olmalı, üzərimizə gələn təhlükəyə qarşı indidən cavab tədbirləri görməliyik. Yoxsa sabah gec olar.**

**Həmid HERİSÇİ**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Bakıdan düşmənə barıt qoxulu işmarış - silahlar ta o vaxtadək susmayacaq ki...

## Azərbaycanın müdafiə nazirinin Rusiya nəşrinə müsahibəsindəki ilginc mesajlardan işğalçı nəticə çıxarmalıdır; sülhü uzaqlaşdıran Ermənistan növbəti müharibədən, sadəcə, çıxmaya bilər...

**Azərbaycanın müdafiə naziri Zakir Həsənovun "RİA-Novosti"yə müsahibəsi erməni tərəfində yəqin ki, "soyuq duş" effekti yaradacaq. Çünki müsahibədə bir neçə incə çatdırış var ki, onları hətta işğalçı Ermənistanın əsas müttəfiqi Rusiya da nəzərə almaq zorundadır.**




Birinci məqam əlbəttə ki, "İsgəndər" zenit-raket kompleksləri ilə bağlıdır - hansılarla ki, Ermənistan xeyli vaxtdır öyünür və bu sistemləri az qala, özü üçün bütün dərdlərin dərmanı, Azərbaycana qarşı əsas çəkindirici silah hesab edir. Lakin Azərbaycanın müdafiə naziri açıq şəkildə bildirib ki, bizim nəinki bu sistemləri, bütövlükdə Ermənistanın Dağlıq Qarabağda və öz ərazisində dislokasiya olunmuş bütün hərbi obyektlərini və infrastrukturunu hədəf alıb vurmaq imkanlarımız var - həm də 50 dəfə artıqlaması ilə.

Zakir Həsənov bildirib ki, həmin obyektləri vurmaq üçün istifadə olunacaq raketlər təkcə Rusiya istehsalı deyil və keyfiyyətcə onlardan əsla geri qalmır. Bu da növbəti mühüm məqamdır. Yəni nazir işarə edib ki, Azərbaycan silah məsələsində Ermənistan kimi heç də Rusiyadan asılı deyil, başqa ölkələr hesabına *(Türkiyə, İsrail, Pakistan)* da güclü silahlanıb və üstəlik, özünün cəbbəxanası var, silah istehsal edir. Bu isə müharibə variantında önəmli strateji üstünlüklərdən biridir.

Daha bir mühüm detal: nazirin sözlərinə görə, hərbi təlimlərdə artıq bu kimi silahlar uğurla sınaqdan çıxarılıb. Ümumiyyətlə, hərb nazirimizin o sözü də diqqət çəkir ki, Ermənistan nə iqtisadi, nə demoqrafik, nə də hərbi baxımından Azərbaycanla müharibə aparmaq potensialında deyil - hansı ki, ötən ilin 4 günlük aprel savaşında özünü göstərib.

"Düşmənin müdafiə xəttini 40 dəqiqəyə keçdik" deyən nazir onu da qeyd edib ki, kənar müdaxilə olmasa, Ermənistan Azərbaycanla savaşda heç 3 gün də duruş gətirə bilməz. Yeri gəlmişkən, nazirin sözlərindən bir daha məlum olub ki, ötən ilki aprel savaşı məhz erməni tərəfinin xahişi ilə, Moskvanın birbaşa müdaxiləsi ilə dayandırılıb.

***

Bütün bunları xatırlatmaqla Azərbaycanın müdafiə naziri əslində ilk növbədə erməni xalqına mesaj göndərib ki, kriminal bir rəhbərliyin Qarabağ avantürasına görə öz övladlarını kütləvi qırğına verməsin və Sərkisyan rejimini sülh danışıqlarına məcbur eləsin. Əks halda, nəticə ilk növbədə erməni xalqı üçün, Ermənistan üçün fəlakətli olacaq. Ermənistan növbəti müharibədən, sadəcə, çıxmaya bilər.

Bakının düşmənə və vasitəçi dövlətlərə əsas çatdırışı da bundan ibarətdir ki, regionda sülh və ya böyük müharibə seçimi müstəsna olaraq Ermənistandan asılıdır, Azərbaycandan da yox. Azərbaycandan hansısa güzəşt gözləməyə dəyməz. Azərbaycanın ən böyük güzəşti işğal rejiminə bu günədək dözüm göstərməsidir.

Lakin bu, əbədi sürə bilməz. Müsahibəsində "status kvo, işğal rejimi sonsuzadək sürə bilməz" deyən Zakir Həsənov da ən əvvəl buna diqqət yönəldib. O üzdən Azərbaycanın müdafiə nazirinin Rusiya nəşrinə müsahibəsi ilk növbədə işğalçı üçün ayıldıcı effekt verməlidir.

Təəssüf ki, İrəvan hələ də 1-ci Qarabağ savaşındakı "hərbi qələbə"nin eyforiyası ilə yaşayır. Bu harasıdır, erməni tərəfi onsuz da dalanda olan kövrək sülh prosesini daha güclü şəkildə topa tutmağa hazırlaşır. Söhbət işğal altındakı Dağlıq Qarabağda iyulun 19-na təyin edilmiş növbəti qondarma "prezident seçkiləri"ndən gedir.

Aydındır ki, heç bir ölkə tərəfindən tanınmayan və tanınmayacaq bu kimi təxribatçı addımlar, qeyri-legitim seçkilər sülhü deyil, yalnız böyük müharibəni yaxınlaşdıracaq. O üzdən ATƏT-in Minsk Qrupu həmsədrləri də indiki olduqca həssas, XİN başçıları səviyyəsində də danışıqların nəticə verməd iyi bir dönəmdə erməni tərəfinin belə təxribatlarına ikiqat diqqət yönəltməli, gərəkən addımları atmalıdır. Əks təqdirdə, müharibə gec-tez qaçılmaz olacaq.

***

**Ermənistan isə Rusiyadan nə qədər narazı olsa da, müharibə halında ümidini yenə Moskvaya, hətta KTMT-yə bağladığını gizlətmir. Hərçənd həm Rusiya, həm də KTMT üzvü olan digər dövlətlərin rəsmiləri dəfələrlə bəyan ediblər ki, Dağlıq Qarabağ bu hərbi qurumun məsuliyyət zonasına daxil deyil. Bunu son olaraq, bir daha Qazaxıstanın Ermənistandakı səfiri Timur Urazayev söyləyib.**

"Dağlıq Qarabağ ətrafındakı konflikt Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə bağlı deyil". Səfir bu sözləri "Sputnik Ermənistan"a müsahibəsində deyib. Diplomat Qarabağ konfliktinin danışıqlar yolu ilə həll edilməli olduğunu da bildirib. "Qazaxıstan bu konfliktin təşkilatla əlaqələndirilməməsinin tərəfdarıdır. Ona görə ki, bu, regional konfliktdir və beynəlxalq hüququn tələblərinə uyğun həll edilməlidir", - deyə o qeyd edib.

***

Əslində İrəvan özü də Dağlıq Qarabağ ətrafında situasiyanın yaxşı fərqindədir və bilir ki, Rusiyadan başqa heç bir KTMT ölkəsini Ermənistan maraqlandırmır. Odur ki, İrəvan bütün ümidini Moskvaya, əlalxüsus da Rusiya ilə ortaq hərbi birləşmələrə bağlayıb.

Yeri gəlmişkən, dünən Rusiya Dövlət Duması Ermənistanla birgə qoşunların yaradılmasını müzakirə etməli idi. Söhbət Ermənistanla ötən ilin noyabrın 16-da Moskvada imzalanmış birləşmiş qoşun qruplaşmasının yaradılması haqqında sazişin ratifikasiyasından gedir.

Saziş və sənədə əlavə Rusiya-Ermənistan birləşmiş qoşun qruplaşmasının təyinatı, formalaşdırılması və istifadəsini müəyyən edir. Qeyd olunur ki, Rusiya-Ermənistan birləşmiş qoşun qruplaşmasının yaradılmasının əsas məqsədi Qafqaz kollektiv təhlükəsizlik bölgəsində hərbi təhlükəsizliyin təmin edilməsidir. Birləşmiş qoşun qruplaşmasının əsas vəzifələri Rusiya və Ermənistana qarşı hücum hazırlanmasının müəyyənləşdirilmək və dəf etmək, hər iki ölkənin dövlət sərhədinin quru hissəsini qorumaq, hərbi-kosmik məkanda Rusiya və Ermənistanın dövlət sərhədlərinin mühafizəsini həyata keçirmək, iki ölkənin qoşunlarının və bölgədəki strateji obyektlərinin havadan müdafiəsində iştirak etməkdir.

Saziş Rusiya-Ermənistan birləşmiş qoşun qruplaşmasının idarə olunması üçün birləşmiş komandanlığın yaradılmasını da nəzərdə tutur. Qoşun qruplaşmasından istifadə qərarı Rusiya və Ermənistanın ali baş komandanları tərəfindən qəbul olunur. Beşillik hərbi saziş avtomatik olaraq növbəti 5 il müddətə uzadıla bilər. "Sazişin reallaşdırılması Rusiyanın maraqlarına tam cavab verir, iki ölkənin təhlükəsizliyinin möhkəmləndirilməsinə imkan yaradacaq və federal büdcədən əlavə maliyyə vəsaitlərinin ayrılmasını tələb etməyəcək", - deyə müşayiətedici sənədlərdə bildirilir.

**Lakin bu sənəddən də göründüyü kimi, birləşmiş ordu birləşməsinin hədəfləri arasında Dağlıq Qarabağ məsələsi yoxdur.**



# Moskvadan gələn erməni Zəhranın və nənəsinin məzarını ziyarət etdi

**Xəbər verildiyi kimi, "Ermənistan-Azərbaycan Sülh Platformasına" qoşulan Oksana Altunyan 30 il sonra Azərbaycana səfər edib.**

Xatırladaq ki, Oksana Altunyan Bakıda anadan olub və 1987-ci ilə qədər Bakıda yaşayıb, daha sonra ailə vəziyyəti ilə əlaqədar Moskvaya köçüb, lakin Dağlıq Qarabağ ətrafında Azərbaycanla Ermənistan arasında mövcud olan münaqişə səbəbindən vətəninə qayıda bilməyib.

Oksana Altunyan Bakını gəzərək, yaşadığı məhəlləyə, bitirdiyi məktəbə gedib və orda köhnə qonşuları ilə səmimi söhbət edərək öz xatirələrini bölüşüb. O, Bakıda erməni və azərbaycanlılar arasında münaqişənin yarandığı zaman öz ailə üzvlərinin qonşuları tərəfindən necə xilas edildiyindən bəhs edib. Oksana Altunyan qeyd edib ki, siyasətdən uzaq olan, münaqişədən zərər çəkmiş insanların doğma vətənlərinə qayıtması çox vacib və zəruridir.

Dünən isə "Ermənistan-Azərbaycan Sülh Platforması"nın üzvləri Oksana Altunyan və Dilarə Əfəndiyeva, o cümlədən Sülh Platformasının həmkoordinatoru Orxan Nəbiyev Füzuli rayonunun Alxanlı kəndinə səfər edərək, minaatan və ağır artilleriya atəşi nəticəsində həyatını itirmiş 2 yaşlı Zəhra Quliyevanın və onun nənəsi Sahibə Quliyevanın məzarını ziyarət ediblər. Platformanın mətbuat xidmətindən virtualaz.org-a verilən məlumata görə, Oksana Altunyan onların yaxınlarına və həmkəndlilərinə başsağlığı verərək mülki vətəndaşlara qarşı aqressiyanı pislədiyini bildirib.

**Oksana sülh və mehriban qonşuluğun bərpası üçün iki xalqın ziyalılarını öz səylərini birləşdirməyə çağırıb:** "Biz cəbhədə bu vəhşiliyə son qoymalıyıq. Sadə xalqın nümayəndəsi kimi mən də azərbaycanlılar və ermənilər arasında sülhün bərqərar olmasını istəyirəm. Bunun üçün də hər iki ölkənin rəhbərliyi dərhal hərbi əməliyyatları dayandırmalı və danışıqlar masasına oturmalıdır".

Azərbaycan Respublikasının Prezidentİ yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# Kreml və Trampın rus ruleti - güllə birinci kimin beyninə çaxılacaq?

## Trampın oğlu ilə rusiyalı vəkil Nataliya Veselnitskaya arasında ilişkilər dünya mətbuatının əsas mövzusuna çevrilib

**“Donald Tramp və Rusiya” mövzusu 7 aydır qəzet səhifələrinin və televiziyaların siyasi proqramlarının ən populyar mövzusudur.**

Demək olar ki, hər həftə bununla bağlı yeni fiqurantların iştirakı ilə təzə məlumatlar ortaya çıxır.

Trampın oğlu ilə rusiyalı vəkil Nataliya Veselnitskaya arasında informasiya mübadiləsini də eyni qəbildən olan məsələ hesab etmək olar.

Qərb mətbuatı isə Donald Tramp və Rusiyanın öz aralarında rus ruletini oynadığını yazır *(rus ruleti çar zabitlərinin barabanlı tapançaya bir güllə yerləşdirərək onu gicgahlarına dayamaqla atəş etdikləri təhlükəli mərc oyununa deyilir-red.)*

**“Görəsən, Rusiyanı bizə düşmən edən nədir”, - The Washington Post qəzetinin redaksiya yazısında belə bir başlıq qoyulub.**

“Düşmən olmaq üçün bir-biri ilə müharibə etməyə gərək yoxdur. Əslində nəzəri baxımdan Rusiya və ABŞ-ın mövqeləri bir çox məsələlərdə o qədər də fərqlənmir. Hər ikisi dünyanın ayrı-ayrı qitələrində yerləşən dövlətdir. Onların arasında hansısa ərazi mübahisəsi mövcud deyil *(hərçənd Arktika buzlarının əriməsi bunu dəyişə bilər -red.)* İki dövlət də İslam xilafətinə və dininə nifrət edir və s.

Müəllifin fikrincə, Rusiyanı ABŞ-a düşmən edən cəhət Putinin sadiq olduğu dəyərlərlə amerikan dəyərləri arasında fərqlilikdir. Putin nüfuz sahələrini xalqların öz müqəddəratını həll etmək hüququndan, korrupsiyanı şəffaflıqdan, repressiyanı demokratiyadan üstün tutur.






“Lakin Putin dərk etdi ki, Donald Trampın siyasəti onun müdafiə etdiyi dəyərlərlə harmoniya təşkil edir. Bu səbəbdən kiçik Tramp Rusiyanın köməyindən yararlanmağın üstünlüklərini, Rusiya isə belə bir köməyi göstərməyin üstünlüklərini çox yaxşı gördü və onlar arasında bu cür yaxınlaşma baş verdi”, - məqalədə qeyd olunur.

**Britaniyanın “The Times” qəzetinin redaksiya məqaləsi isə “Rus ruleti” adlanır.**

**Qəzet Trampın oğlunun son hərəkəti ilə Rusiya ilə bağlı qalmaqalların səngiyəcəyi ilə bağlı bütün ümidləri dəfn etdiyini yazır.**

“Mümkündür ki, bu skandal ABŞ-ın Kremllə münasibətləri düzəltmək yolunda bütün cəhdlərinin üstündən xətt çəksin. Burada Rusiya da əslində özünə zərbə vurmuş sayılıb. Onun sanksiyaların azalacağı ilə bağlı arzuları puç oldu. Tramp isə o qədər zəifləyib ki, Putinin onu manipulyasiyaya düçar etmək şansı, demək olar, qalmayıb. İndi bütün Vaşinqton isteblişmenti ayaq üstündədir”, - məqalədə yazılıb.

Müəllifin fikrincə, bütün bu olanlardan sonra Rusiya militarist avantürizmindən, ərazilər qəsb etməkdən və Qərbdəki seçkilərə müdaxilə etməkdən əl çəkməyənədək sanksiyaları qorumaq zəruridir.

**“The New York Post” qəzeti isə kiçik Trampı “sarsaq” adlandırıb.**

“Hansısa axmaq britaniyalı prodüser sənə ”Hillarini ifşa edəcək" "sənəd və informasiya” ötürmək məqsədilə Rusiya hökumətinin vəkili ilə görüşdürmək üçün elektron məktub göndərir və sən buna həvəslə razılaşırsan, üstəlik, yeznən Cared Kuşneri və atanın seçki qərargahının rəhbəri Pol Manafortu da özünlə götürürsən. Vladimir Putinin hökuməti heç vaxt belə səfeh hərəkətə yol verməzdi", - qəzet qeyd edir.

“The Wall Street Journal” ABŞ prezidentinin böyük oğlunun rusiyalı vəkillə görüşünün üzə çıxmasından sonra prokurorluq orqanlarının 2015-ci ildən bu yana rusiyalı hökumət nümayəndələri və Trampın ətrafı ilə apardıqları söhbətlərin kəşfiyyat tərəfindən dinləmə protokollarını incələdiyini yazıb.

Qəzet kəşfiyyatın dinləməyə hələ Trampın prezident kimi namizədliyini elan etməzdən qabaq başladığına diqqət çəkib. Lakin həmin dövrdə təhlükəsizlik agentlikləri aparılan danışıqların qeyri-müəyyən olması səbəbindən alınan raportlarla nə edəcəklərini bilməyiblər. Həmin vaxtdan etibarən şübhələr yavaş-yavaş yer almağa başlayıb.

Qəzetin yazdığına görə, 2016-cı ilin yazında məsələyə Avropa kəşfiyyatı da qoşulub. Onlar prezident kampaniyasının Rusiya qaynaqlarından maliyyələşdirildiyi barədə amerikalı həmkarlarına xəbərdarlıq ediblər.

Beləliklə, qəzetlərin yazdığından belə bir nəticə hasil olur ki, rus ruletində barabandakı boş yerlər artıq tükənmək üzrədir və onun bir gün atəş açması artıq an məsələsidir. Hər halda, Tramp haqqında impiçment sədalarının yüksəlməsi onun üçün xoş gəlişmə sayılmamalıdır.

❑ **Musavat.com**

# ABŞ Rusiyaya qarşı sanksiyaları sərtləşdirmək istəyir




## Ağ Ev administrasiyası isə hələ ki gözləmə və müqavimət mövqeyindədir

**ABŞ Demokratlar Partiyasının üzvləri Rusiyaya qarşı sanksiyalarla bağlı yeni qanun layihəsini gündəmə gətiriblər.**

Sənəd iyun ayının 15-də qəbul olunan layihədən fərqlənmir. Layihə prezidentin sanksiyaları ləğv etməklə bağlı səlahiyyətlərini xeyli məhdudlaşdırır.

Lakin Senatdan fərqli olaraq aşağı palatada məsələ ətrafında fikirlər yekdil deyil. ABŞ konqresmenləri bu səbəbdən əvvəl qəbul olunan qanun layihəsini dondurulmuş vəziyyətdə saxlayıblar.

Bundan başqa, Senatın bu kimi məsələlərdə təşəbbüsü ələ götürməsi Nümayəndələr Palatasının və onun respublikaçı üzvlərinin xoşuna gəlmir.

Buna rəğmən qanunverici orqanın nüfuzlu respublikaçıları da aşağı palatanı tez qərar qəbul etməkdə tələsdirirlər. ABŞ Senatının Beynəlxalq əlaqələr üzrə Komitəsinin sədri


Bob Korker

senator Bob Korker (Tennessi) “arada yaranan ziddiyyətlərin yalnız Rusiyanın xeyrinə işlədiyini” bəyan etməsi bunu göstərir.

Hər halda, Trampın oğlu ilə bağlı son qalmaqaldan sonra sənədin Konqresdə də dəstək görəcəyi yüksək ehtimallar arasındadır.

Nümayəndələr Palatasının spikeri Pol Rayan layihəni dəstəklədiyini və bəzi formallıqların artıq aradan qaldırılmalı olduğunu söyləyib.

“Siz mənim problemə münasibətimi bilirsiniz. Rusiyaya qarşı mən əsl qırğıyam”, - spiker jurnalistlərlə söhbətində bildirib.

Hazırda Rusiyaya qarşı artıq bir neçə sanksiya qüvvədədir. Onların hamısı Kremlin Ukraynaya qarşı təcavüzü və Krımı işğal etməsi ilə əlaqədar qəbul edilib.

2014-cü ilin martında keçmiş prezident Barak Obama 3 fərman, il yarım sonra isə daha bir sənəd imzalayıb.

Obamanın qəbul etdiyi 6 mart 2014-cü il tarixli 13660 saylı və 16 mart 2014-cü il tarixli 13661 saylı prezident aktları ilə Rusiya elitasının nümayəndələrinə qarşı xüsusi sanksiyalar tətbiq olunub. Sanksiyalar Rusiyanın siyasi-hərbi rəhbərliyini, habelə Putinə yaxın iş adamlarının bir çoxunu əhatə edir.

13661 saylı sənəd isə Maliyyə Nazirliyinə dövlət katibi ilə razılaşdırmaqla sanksiya siyahısını tətbiq etmək səlahiyyəti verib. Bununla bağlı Maliyyə Nazirliyinə bağlı olan Xarici aktivlər üzərində nəzarət Agentliyinə fərmanın inzibati qaydada icrası tapşırılıb.

Obamanın 3-cü sanksiyası isə 2014-cü il martın 20-də imzalanıb. 13362 saylı aktla sanksiyalar artıq siyasətçilərlə bərabər böyük şirkətlərə də şamil edilib. Məhz sonuncu fərman Rusiya iqtisadiyyatına qarşı sektoral sanksiyaları özü ilə bərabər gətirdi ki, bunun da ölkə biznesinə vurduğu zərər onmilyardlarla ölçülür.

2014-cü ilin dekabrında isə Obama 4-cü, 13685 saylı fərmanı imzalayıb. Buna görə Krım bölgəsinə ABŞ mallarının, xidmətlərinin, texnologiyalarının idxalı və ixracı qadağan olunub.

Sanksiyaların qüvvəsi adadakı banklara da aid edilib. Bununla sayəsində Krım “Visa” və “Mastercard” kimi ödəniş sistemindən kənarlaşdırılıb.

Qanunverici hakimiyyətin üzvlərini narahat edən məqam bütün bu sənədlərin icraedici hakimiyyət tərəfindən qəbul edilməsidir. Yəni istənilən prezident istədiyi anda həmin sanksiyaları hətta tamamilə aradan qaldıra bilər.

Bu səbəbdən onlar məsələnin qanuni qüvvə almasını istəyirlər. Yeni qanun layihəsinə görə, ABŞ-ın fiziki və hüquqi şəxsləri Rusiya banklarını 14 gündən artıq müddətdə kredit verə bilməzlər. Bundan başqa, Rusiyanın neft-qaz sektorunda fəaliyyət göstərən şirkətlərin maliyyələşdirmə müddətlərinə də məhdudiyyətlər gətirilir.

Buna rəğmən Ağ Ev yeni qanun layihəsinə qarşı müqavimət imkanlarından tam istifadə etmək niyyətindədir.

“Qanun layihəsi indiki formada ABŞ hökumətinin xarici siyasəti aparmaq qabiliyyətinə kölgə salır”, - Ağ Evin mətbuat katibinin müavini Hakabi Sanders bəyan edib.

Ağ Ev prezident səlahiyyətlərinin qanunverici orqan tərəfindən mənimsənilməsi faktının doğru olmadığını ifadə edir.

**“Belə çıxır ki, xarici siyasət məsələsi ilə bağlı mandat qanunverici palatanın 535 üzvünə keçir”,** - Ağ Ev rəsmisi mətbuatla söhbətində bildirib.

❑ **Musavat.com**

**Bu günlərdə ölkə başçısı Milli Məclisin “Əhalinin sağlamlığının qorunması haqqında" Qanuna etdiyi son əlavələri təsdiq etdi. Qanuna əsasən, hamiləliyin süni yolla pozulması və süni mayalanma üzrə tibbi xidmətin reklamı qadağandır. Bu məsələ ictimaiyyətdə xeyli müzakirələrə səbəb olub. Bir çoxları düşünür ki, bu qanunla əslində süni mayalanma qadağan olunur. Əslində isə süni mayalanma deyil, onunla bağlı tibbi xidmətlərin reklamı qadağan olunub.**

# Süni mayalanmanın reklamı yasaqlandı, bəs tətbiqinə ehtiyac varmı?

## Həkim: “Bu yolla doğulan uşaqlarda mütəmadi müxtəlif problemlər üzə çıxır...”



Qeyd edək ki, süni mayalanma ilk dəfə 1978-ci ildə Böyük Britaniyada baş tutub. Təxminən 10 ildən çoxdur ki, ölkəmizdə də bu cür metod tətbiq olunur və minlərlə uşaq sözügedən üsulla dünyaya gəlib. Bu metodun necə tətbiq olunmasına gəldikdə isə ekspertlər qeyd edir ki, süni mayalanma, sadəcə, bir termindir. Əslində bu, yardımçı reproduktiv texnologiyalar çərçivəsində ekstrakorporal mayalanma deməkdir. Korpus bədən, ekstra isə xaric deməkdir. Yəni qadın və kişi hüceyrələrinin birləşməsi insan orqanizmində deyil, sınaq şüşəsində, laboratoriyada baş tutur, daha sonra isə qadının uşaqlığına yerləşdirilir. Laboratoriyada həm kişi, həm də qadın hüceyrələrinin içərisində ən yaxşıları seçilir və onlar mokroinyeksion üsulla mayalandırılır, yəni kişi hüceyrəsi xüsusi mikroinyeksion iynə vasitəsilə yumurtahüceyrəyə daxil edilir.

Nəticədə əmələ gələn embrionlar inkubatora yerləşdirilir. Onlar 3 gün nəzarətdə saxlanılır, öyrənilir və içərisindən ən yaxşısı seçilib heç bir narkoz vermədən xüsusi kateter vasitəsi və ultrasəs cihazının nəzarəti ilə qadının uşaqlığına yerləşdirilir. Ekspertlərə görə, hüceyrələr seçilərkən onun qız və ya oğlan, hətta əkiz, üçəm olması ilə bağlı əvvəlcədən sifariş etmək olur. Süni mayalanmanın alınma şansına gəldikdə isə bu şans yaş faktoruna görə 30-60 faiz arasında dəyişir. Belə ki, 30 yaşa qədər olan qadınlarda bu şans 60-70, 30-35 yaş arasında olan qadınlarda 40-50, 40 yaşdan yuxarı olan qadınlarda isə 20-30 faiz olur. Bəzən alınmadıqda bu metod bir neçə dəfə tətbiq olunur.

Süni mayalanmanın qiymətinə gəldikdə isə bu məsələ də klinikalarda dərmanların alınıb-alınmamasından asılı olaraq dəyişir. Yəni əgər dərman alınarsa, xidmət üçün orta hesabla 2500 manat xərcləmək lazım gəlir. Məsələn, Mərkəzi Klinikada bu proses ümumilikdə 3500, dərmanlarsız 2500 manata, “Baku Medical Plaza”da ümumi 4500, dərmanlarsız isə 2500 manata, Reproduktiv Sağlamlıq Mərkəzində isə 4500 manata başa gəlir.

Ümumilikdə isə süni mayalanma Azərbaycan cəmiyyətində birmənalı qarşılanmır. Həm dini, həm də milli-mənəvi baxımdan bu metodun cəmiyyətimizə uyğun olmadığını düşünənlər kifayət qədər çoxdur. Bir neçə il öncə “Reproduktiv sağlamlıq və ailə planlaşdırma haqqında” qanun layihəsi parlamentdə müzakirəyə çıxarılarkən deputatların əksəriyyəti layihədə öz əksini tapan “surroqat ana” və cinsi toxumlar üzrə donorluq məsələlərinin milli mentalitetimizə, dini dəyərlərimizə zidd olduğunu əsas gətirərək, bu barədə qanunun qəbul olunmasının əleyhinə səs vermişdilər. QMİ (Qafqaz Müsəlmanları İdarəsi) də bu məsələyə qarşı çıxmışdı. Belə ki, İslam dininə əsasən süni mayalanma prosesində iştirak edən qadın və kişi ər-arvad olmalıdır. Onların dini kəbini olarsa, bu proses halal hesab olunur.

Əgər hər hansı bir səbəbdən qadın embrionu daşıya bilmirsə, bu zaman surroqat anadan istifadə olunur. Öz uşaqlığında donor embrionu daşıyan, uşaq dünyaya gətirməyə qadir olan qadın surroqat ana adlanır. İslam dinində qadının yumurtahüceyrəsinin ərinin sperma hüceyrəsi ilə mayalandırılaraq digər bir qadının bətninə yerləşdirilməsinə icazə verilmir. Bəzən ərin sperma hüceyrəsi yad qadının yumurta hüceyrəsi ilə mayalandırılır və qadının bətninə yerləşdirilir. Bu zaman əgər yumurta hüceyrəsi götürülən qadınla kişi arasında dini kəbin varsa, bu iş halal sayılır. Əks təqdirdə, dinimiz bu prosesə icazə vermir. Kişi sonsuzluğu zamanı bəzən qadının yumurta hüceyrəsi yad kişinin sperma hüceyrəsi ilə mayalandırılır. İslam dininə görə, bu proses haramdır.

**Həkim Vaqif Qarayevin sözlərinə görə, süni mayalanma ilə doğulan uşaqlarda mütəmadi müxtəlif problemlər üzə çıxır:** “İlk öncə süni mayalanma üçün ciddi müayinədən keçmək lazımdır. Bu zaman müəyyənləşdirmək olar ki, cütlüyə süni mayalanma tətbiq etmək olar, ya olmaz. Heç kəs kimsəyə qadağan edə bilməz ki, süni mayalanmadan uşaq dünyaya gətirməsin. Burada insan haqları var. Tutaq ki, ölkəmizdə süni mayalanma ilə bağlı tibbi xidmətin reklamı deyil, metodun özü belə qadağan olunsa, insanlar bunun üçün digər ölkələrə müraciət edəcəklər. Məsələn, qonşu Gürcüstanda bu məsələ çox geniş yayılıb və kim istəsə, həmin ölkəyə gedib süni mayalanmaya müraciət edə biləcək, burda bir problem yoxdur. Yəni bu metodun reklamının qadağan olunmasının mən də tərəfdarıyam. Hətta abortun da reklamının qadağası ilə razıyam. Lakin inzibati qadağalarla bunun qarşısını almaq mümkün deyil. Çünki ilk növbədə bu məsələdə insanın düşüncəsi dəyişməlidir”.

**Həkimin fikrincə, bu cür uşaqların əqli və zehni inkişafında müəyyən problemlər üzə çıxır və yaxud tez-tez xəstələnirlər:** “Doğrudur, təbii hamiləliklə dünyaya gələn uşaqlarda da problemlər olur. Lakin süni mayalanma ilə doğulan uşaqlarda bu faiz daha çoxdur. Buna görə də qanunvericiliyə əsasən, süni mayalanma ilə dünyaya gələn uşaqlara ciddi tibbi nəzarət olur. Bizim cəmiyyətdə bu məsələ bir qədər birmənalı qarşılanmır. Bu da əsasən dinlə bağlıdır. Deyə bilmərəm ki, süni mayalanma ilə dünyaya gələn uşaqlara cəmiyyətin mövqeyi, yanaşması necə olacaq, amma düşünürəm ki, şəxs əgər övlad istəyir və bunu süni mayalanma ilə həyata keçirmək istəyirsə, biz onun haqqına girə bilmərik. Sadəcə, hər şey qanunla tənzimlənməlidir. Yəni yalnız müxtəlif müayinələrdən sonra tibb işçiləri qərar verməlidir ki, şəxs təbii yolla hamilə qala bilməz və bu zaman süni mayalanma tətbiq etmək olar”.

❑ Xalidə GƏRAY




# Azərbaycanda ikili vətəndaşlıq: cəza da var, istisna da

## Vaxtilə Müslüm Maqomayev və Toğrul Nərimanbəyovun ikili vətəndaşlığı olub, amma...

**İkinci bir ölkənin vətəndaşlığını qəbul edən Azərbaycan vətəndaşı redaksiyamıza müraciət edərək, bundan sonra ölkəyə qayıdarkən nə etməli olduğunu soruşur. Sualı isə budur ki, eyni zamanda iki ölkə vətəndaşı ola bilərmi? Azərbaycan qanunvericiliyi ikili vətəndaşlığı qəbul edirmi? Əgər qəbul olunmursa, o, Vətənə qayıtdıqda, haraya necə müraciət etməlidir?**

Bu suallar yəqin ki, əksər oxucularımızı maraqlandırır. Bu baxımdan, “Yeni Müsavat” olaraq Azərbaycan qanunvericiliyinin ikili vətəndaşlığı necə tövsif etməsini araşdırmağa çalışdıq.

**Hüquqşünas Əkrəm Həsənov** qəzetimizə açıqlamasında bildirdi ki, xarici ölkə vətəndaşlığını qəbul etmiş şəxs bu haqda aidiyyəti qurumlara məlumat verməsə cinayət məsuliyyəti daşıyır: “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Qanunun 10-cu maddəsinə əsasən xarici dövlətin vətəndaşlığını qəbul etmiş vətəndaşımız bu barədə Xarici İşlər Nazirliyinə və Dövlət Miqrasiya Xidmətinə bir ay müddətində yazılı məlumat verməlidir. Əks halda, o, Cinayət Məcəlləsinin 318-2-ci maddəsinə uyğun olaraq 3000 manatdan 5000 manatadək miqdarda cərimə və ya 360 saatdan 480 saatadək ictimai işlərlə cəzalandırılır".

**Ekspertin sözlərinə görə, qanunda istisna hallar da var:** “Xarici dövlətin vətəndaşlığını qəbul etmiş vətəndaşımız yalnız iki halda paralel olaraq Azərbaycan vətəndaşı kimi də qala bilər - beynəlxalq müqaviləyə və ya dövlət başçısının qərarına əsasən. Belə ki, ”Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanunun 10-cu maddəsinə əsasən şəxsin ikili vətəndaşlığı olduqda həmin şəxsin xarici dövlətin vətəndaşlığına mənsubiyyəti, Azərbaycanın beynəlxalq müqavilələrində nəzərdə tutulmuş və ya prezidentin icra qaydasında həll etdiyi hallar istisna olmaqla, tanınmır. Həmin qanunun 18-ci maddəsinə görə isə Azərbaycan Respublikası vətəndaşının digər dövlətin vətəndaşlığını könüllü əldə etməsi Azərbaycan Respublikası vətəndaşlığının itirilməsi üçün əsasdır.

Beləliklə, ikili vətəndaşlıq Azərbaycanda ümumən qadağandır, amma istisnalar ola bilər. Bununla belə, təbii, xarici dövlətin vətəndaşlığını qəbul etdiyinə görə Azərbaycan vətəndaşlığını itirmiş şəxs sonradan xarici vətəndaşlıqdan imtina edib yenidən bizim vətəndaşlığı əldə etmək üçün ümumi qaydada müraciət edə bilər və dövlət başçısının qərarı ilə onun vətəndaşlığı bərpa oluna bilər".

**Hüquqşünas hesab edir ki, mövcud qanunvericiliyimiz günün tələbinə cavab verir:** “Bir ara boşluq var idi və icazəsiz ikili vətəndaşlığa malik olanlarımız var idi, amma indi məsələ düzgün həllini tapıb. Ən azı müharibə bitməmiş bu məsələdə liberalizmə yol verilə bilməz. İki dövlətin əsgəri olmaq mümkün deyil. Eyni zamanda bu məsələdə qanunla nəzərdə tutulmuş istisnaları da düzgün hesab edirəm. Məsələn, dünyada tanınmış soydaşlarımız var və onlara ikili vətəndaşlığa malik olmaq imkanının yaradılması düzgündür. Vaxtilə Müslüm Maqomayev və Toğrul Nərimanbəyov kimi sənətkarlarımızın da ikili vətəndaşlığı olub. Yəqin ki, indi də dövlət başçısının icazəsi ilə belə hallar var və bu istisnalar həm dövlətçilik baxımından, həm də həmin şəxslərin xidmətləri baxımından əsaslıdır”.

❑ Nərgiz LİFTİYEV

YENİ MÜSAVAT
N 148 (6762) 15 iyul 2017

**Bugünlərdə küçədə təbii ehtiyacını ödəyən ərəb mövzusu olduqca aktualdır. Amma bu məsələdə müzakirəyə səbəb olan bir başqa nüans da Bakıda ictimai ayaqyolu problemidir. Şəhərin mərkəzinə tez-tez gedənlər bilir. Bu həndəvərdə ictimai ayaqyolu tapmaq müşkül məsələdir.**






# Bizdə kolluğa, Avropada isə milyonluq tikiliyə...

## Azərbaycanda ərəbin təbii ehtiyacını küçədə ödəməsi ictimai ayaqyolular mövzusunu gündəmə gətirib

## Dünyanın çox rahat, bizimsə çətinliklə həll etdiyimiz tualet problemi barədə bilmədiklərimiz

İnsanlar bəzən bu məqsədlə o ərazidəki kafe-restoranların ayaqyolundan istifadə etməyə çalışırlar. Bundan ən çox əziyyət çəkən isə heç şübhəsiz ki, KFC restoranlar şəbəkəsidir. Restoran bunun qarşısını almaq üçün ayaqyolunu kodlaşdırıb. Sən nəsə sifariş edib, aldığın halda o “sehrli kod”a sahib ola bilirsən.

Bəs əgər şəhəri turizm şəhəri elan etməkdə israrlıyıqsa, bu kiçik problemi niyə yoluna qoymuruq? Hansı səbəbdən paytaxt hələ də bu problemin əsirinə çevrilib? Nəzərə almaq lazımdır ki, ictimai ayaqyolu olmayan və ya olduqca az sayda olan şəhər küçələrinin ayaqyolu kimi qoxuması da bu səbəbdəndir. Maraqlıdır, turizm şəhərləri bu problem necə yoluna qoyurlar?

**Dünyada 2.6 milyard insanın... ayaqyolu problemi var**

2001-ci il noyabrın 19-dan etibarən Dünya Tualet Təşkilatı bu günü dünyanın 19 ölkəsində qeyd edir. BMT-nin araşdırmalarına görə, dünyada 2,6 milyard insan ayaqyolu problemindən əziyyət çəkir, hər gün 5000 uşaq tualetin səbəb olduğu infeksion xəstəliklərə və gigiyenik şəraitin məhdudluğuna görə vəfat edir.

Təkcə Hindistanda 650 milyon insanın, yəni əhalinin yarısından çoxunun evində tualet yoxdur. Dünya əhalisinin 15 faizi hələ də açıq havada tualetə gedir.

Dünya Səhiyyə Təşkilatının hesablamalarına (WHO) görə, qeyri-qənaətbəxş kanalizasiya hər il 280 min nəfərin ölümünə səbəb olur və bir neçə tropik xəstəliklərin əsas səbəbidir. Perunun paytaxtı Lima şəhərinin kənarında yerləşən bu tualet Llamocca ailəsinə məxsusdur.

Pis sanitariyanın vəba, yatalaq və iflic xəstəliklərinin yayılmasına səbəb olduğu deyilir. UNİCEF və World Vision tərəfindən təmin edilmiş tualetlər Livandakı suriyalı qaçqınların yaşadığı düşərgələrdə yerləşir.

Çinin Shigezhuang kəndində miqrant işçilər üçün nəzərdə tutulmuş ictimai tualetin divarlarına cinsi əlaqə zamanı yoluxan xəstəliklərin müalicəsinə dair posterlər vurulub.

BMT-nin Qadın və Qızlar və Onların Sanitariya Hüququ hesabatında deyilir: **“Qadınlar şəxsi sanitariya vasitələrinə çıxışla kişilərə nisbətən daha çox dəyər verir, lakin səsləri eşidilmir”.**

Bu arada qeyd edək ki, problemin həlli üçün ilginc stimullaşdırma üsulları da var. Məsələn, Hindistanda qəbul edilmiş yeni proqrama görə, uşaqlara tualet vərdişlərinin aşılanması üçün onlara həvəsləndirmə kimi pul mükafatı verilməsi də nəzərdə tutulur. Açıq mühitdə “defekasiya” o deməkdir ki, adamlar özlərini çöllərdə, kolluqlarda, açıq yerlərdə və açıq su hövzələrində “boşaldırlar”. Bu, uşaqların sağlamlığı üçün ciddi təhlükə yaradır, belə ki, hər il insan ifrazatı ilə ötürülən xəstəliklərə görə yüz minlərlə uşaq ölür.

Hindistanda əhalinin yarısı - 590 milyon insan təbii ehtiyacını açıq havada icra edir.

Bəziləri üçün bu, gündəlik vərdişə çevrilib və onlar bunu hətta ictimai ayaqyoluların olduğu yerlərdə də edirlər.

**Çində hər 3 min nəfərə bir ayaqyolu düşür**

İndi isə Əhmədabad ştatındakı Qucarati şəhərinin bələdiyyəsi ictimai tualetlərdən istifadə edən uşaqlara pul ödənməsi planı ilə çıxış edib. Kampaniyaçılar ümid edirlər ki, bu tədbir hər il 200 min uşağın qarın işləməsindən tələf olduğu ölkədə sanitariya vəziyyətini yaxşılaşdıra bilər.

20 milyonluq Çinin paytaxtı Pekində 7000 ayaqyolu var. Deməli, orta hesabla hər 3 min sakinə bir ayaqyolu düşür, pis deyil. Hətta bir milyard yarım əhalisi olan Hindistanda belə problemlər ucuz əlçatımlı tualetlərin hesabına həllini tapır.

**Londonlular bu tualetə gəlirlər ki, qəhvə içsinlər**

Tikinti bumu və London daşınmaz əmlakının dayanmadan artan qiyməti, Britaniya paytaxtının hər bir kvadrat metrini qızıl qiyməti ilə eyniləşdirib.

Bu, ictimai ayaqyollarına da aiddir. "BBC Travel" müxbiri də bundan təəccüblənib.

BBC jurnalistləri kifayət qədər tez-tez bu keçmiş tualetə baş çəkirlər. Eləcə də, Londonun düz mərkəzində yerləşən Fitzrovia-dakı digər ofislərin işçiləri.

Onla buraya qəhvə içməyə gəlirlər, amma, bəzən yer olmur. Tualet birdən bu qədər insan tutacaq qədər geniş deyil. Buna baxmayaraq, The Attendant qəhvəxanası çox məşhurdur.

Qəhvəxana, Fitzrovia ərazisində yerləşən Foley küçəsində, 2013-cü ilin fevralında açılıb. Bina Viktoriya dövründə, ictimai ayaqyolu kimi istifadə edilərmiş.

Təmir (və təmizlənmə!) təxminən iki il davam edib. İş ortaqları Pete Tomlinson və Ben Russel qərara alırlar ki, 1880-ci illərdə yaxınlıqdakı Titchfield küçəsində yerləşən tacir bazarı üçün inşa edilmiş bu ictimai ayaqyolunun ilkin daxili quruluşuna toxunmasınlar.

Londonun cənubunda Crystal Palace rayonunda yerləşən başqa bir ictimai ayaqyolu da ikinci həyat yaşayır.

Memar Laura Clark buranı ikiotaqlı mənzilə çevirmək qərarına gəldikdə, özü də buna inanmırdı.

Tam bərpa və yenidənqurma 2012-ci ilin yayında başa çatır və bu, Clark-a cəmi 65 min funt sterlinqə başa gəlir.

**Tualet öncə Misirdə, sonra isə Parisdə yaradılıb**

Tarixi faktlara istinad etsək, oturacaqlı tualetin eramızdan 2600 il əvvəl şumer çariçasına



aid olduğu iddia edilir. Şotlandiya ərazisindən isə 5000 il yaşı olan stulabənzər tualetin qalıqları tapılıb. Eramızdan əvvəl 2100-cü ilə aid tualetə Misirdə, daha sonralar isə Parisdə və Hindistan yarımadasında rast gəlinir.

Romada ilk ictimai tualet təkcə ehtiyacları ödəmək üçün deyil, həm də fəlsəfi söhbətlər aparmaq üçün əlverişli yer olub. Daş stullar formasında olan tualetlərdə ilk olaraq nökərlər oturub daşı isidir, sonra isə varlı romalılar öz təbii ehtiyaclarını burada ödəyirdi.

Bu tualetlərin xüsusi kanallara çıxışı var idi ki, onları da su yuyub aparırdı. Roma tualetlərindən ancaq imkanlı romalılar istifadə edirdi. Yerdə qalan əhali isə tualet ehtiyaclarını küçədə ödəyirdilər. Tualeti əvəz edən Roma küçələrini təmizləmək üçün xüsusi pullu xidmətçilər var idi

İlk tualetin nə vaxt yarandığı çox mübahisəlidir. İnanmaq çətindir ki, Paris, London kimi Avropa şəhərlərində tualet tamamilə olmayıb. Sənədli sübutlara görə, saray əyanları və monarxlar öz təbii ehtiyaclarını harda gəldi - parklarda, həyətin küncündə, balkonlarda ödəyiblər. Bu səbəbdən də, sarayların girişindən ta bal zallarına qədər hər yer “ətir” iztirabı verirmiş. Bəzənsə saraydan kənara çıxmağa tənbəllik edən əyanlar güvəclərdən (qorşok) istifadə ediblər. Varlıların güvəcləri qızıl və bahalı daşlarla bəzədilir, digərləri isə adi qablardan istifadə edirmiş. Sadəcə, güvəcləri sonra harasa boşaltmaq lazım gəlib.

Fransız tədqiqatçıların yazdığına görə, şəhərlərdə elə bir çala yox idi ki, ora güvəclər boşaldılmasın. Çirkabın iyindən adamlar başlarını pəncərədən çölə çıxara bilmirdilər. Hətta Parisdə belə bir fərman çıxmışdı ki, adamların özlərini qorumaları üçün çirkabı atmamışdan əvvəl uç dəfə bərkdən “Diqqət, tökürəm” deyə bağırmaq lazımdır.

**Onlar sadə xalq üçün dəyəri milyon dollar olan ayaqyolu tikiblər**

Bugünkü mövzumuz isə ayaqyolu olduğundan maraqlı bir statistikanı da nəzərinizə çatdırraq. Dünyanın ən bahalı ayaqyoluları ilə bağlı siyahı hazırlanıb. Ən ucuzdan ən bahalıya qədər... siyahıya göz yetirək.

**IntiMist:** Burada tualetin təkcə oturma yeri 450 dollardır. Tualetin içərisində isti su, isti hava filtrasiyası və isinməli oturacaq özəllikləri var. Brondell S1000-EW Swash 1000: 600 dollar qymətinədir. Bu modeldə də isidilmiş, erqonomik tualet oturma yeri var. Eyni zamanda isti hava filtrasiyası və dezodorantlama özəlliklərini də unutmaq olmaz. Toto Neorest 600-5000 dollara satılır. Bu tualetə yaxınlaşanda qapağı avtomatik olaraq açılır. Bundan başqa, sifonu avtomatik olaraq şəkir, qapağı qapadır. Tualetdə pultdan istifadə etməklə bəzi işləri asalanlaşdırmaq mümkündür. Asanlıqla oturacağı isitmək və ya qapatmaq üçün düyməyə basmaq olur, suyun temperaturunu artırıb-azalda bilərsiniz. Moon River Art Park Tualeti - 750.000 dollardır. Fərdi istifadə üçün hazırlanmasa da, önəmli tualetlərdən biridir. Şanxayın məşhur Moon River Art Park içində insanlar tərəfindən hazırlanmış bir mağaranın içində yerləşir və turistik yerlərdən sayılır. 2005-ci ildə tualet ilk dəfə açılanda insanlar onu görə bilmək üçün 2 saat gözləyib. Parka giriş pulunu ödəyənlər üçün ondan istifadə də pulsuzdur. Hang Fung Altın Tualeti - 5 milyon dollardır. Hang Fung teknologiya qrupu tərəfindən 24-karat saf qızıldan hazırlanıb. “The Hall of Gold” sərgisində nümayiş etdirilib.

Ən bahalı ayaqyolu isə Beynəlxalq Kosmos Stansiyası Tualetidir və qiyməti 19 milyon dollardır. Dünyanın ən bahalı ayaqyolusu əslində dünya üzərində deyil. Rusiya tərəfindən 2008-ci ilin noyabr ayında kosmos stansiyasına qoyulmaq üzrə hazırlanan tualetdə kosmonavtların düzgün pozisiya ala bilməsi üçün biləklikləri var. Bundan başqa, bütün artığı çəkmək və septik tanklara doldurmaq üçün özəl mexanizmi var.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 148 (6762) 15 iyul 2017

**Azərbaycan klublarının Avroliqanın və Çempionlar Liqasının bu həftə keçirdikləri görüşlər ölkə futbolu haqda pessimist düşüncələrə son qoydu. Daha bəzi ölkə klublarının “gedək Azərbaycanı udaq qayıdaq” kimi arxayınçılığı yoxdur. Əksinə, hələ ölkəmizə gəlməzdən öncə narahat olurlar, “necə və nə edək” sualları üzərində daha çox baş sındırmalı olurlar. Təsadüfi deyil ki, bu həftə Azərbaycanın UEFA klub reytinqindəki mövqeyi daha da yaxşılaşıb.**





# “Gedək, Azərbaycanı udaq” dövrü bitdi

## 4 klubumuzdan 1-i, rəqib meydanında oynayan “Zirə” Rumıniyada “Astra” klubuna 1:3 hesabı ilə uduzsa da, növbəti mərhələyə keçmək şansı var

Son 5 ilin nəticələrinə əsasən hesablanan reytinq xalımız 16,250-yə yüksəlib. Bununla da ölkəmiz Bolqarıstan və Belarusu xal ehtiyatında da geridə qoyaraq 21-ci pillədəki yerini möhkəmləndirib. Azərbaycandan 1 pillə irəlidə - 20-ci yerdə olan İsrailin isə 17.375 xalı var. Qeyd edək ki, cari mövsümdə klublarımız meydana çıxdığı 6 görüşün hamısında qalib gələrək maksimum - 1.500 xal toplayıb.

***

Avropa təmsilçiliyi olan klublarımızın hamısı yaxşı oynadı. Əvvəl Avroliqada “İnter” Lüksemburq təmsilçisi “Fola”nı sınağa çəkdi. Bakı klubu bu mövsüm Avroliqada uğurlu seriyanı davam etdirərək üçüncü qələbəsini qazandı - 1:0. “İnter”in maliyyə problemi olduğu haqda bu həftə çox yazdıq. Klubun Müşahidə Şurasının sədri Zaur Axundov isə ümidli danışdı. Z.Axundov deyib ki, klubun maliyyə durumunda heç bir problem yoxdu. “AFFA-nın gül kimi bazası var. Dünya və Avropa səviyyəli stadion və bazadır. Ot örtüyü də standartlara uyğundur. Üstəlik, şəhərə yaxındı və məşqlə toplanışlar üçün əlverişlidir. Bizim üçün ”Dalğa Arena" daha əlverişlidir" deyə, klub rəsmisi bildirib. Təki belə olsun...

***

Hətta 4 klubumuzdan 1-i, rəqib meydanında oynayan “Zirə” Rumıniyada “Astra” klubuna 1:3 hesabı ilə uduzsa da, yaxşı oynadı. Klubun baş məşqçisi gənc Ayxan Abbasovun ekranda narahat baxışlarını görmək belə xoş oldu, vallah. “Bu hesabla məğlub olmaq istəməzdik. İlk hissə istədiyimiz kimi başa





çatdı. Qol da vurmuşduq. İkinci hissədə diqqətsizlik ucbatından 2 qol buraxdıq”. **Qol.az-ın məlumatına görə, bu sözləri “Zirə”nin baş məşqçisi Ayxan Abbasov deyib. O, məğlubiyyətə baxmayaraq, komandasından razı qaldığını bildirib:** “Futbolçularımın əzmkarlığı məni qane etdi. Yeni oyunçularımıza uyğunlaşmaları üçün bir az vaxt lazımdır. İnanıram ki, cavab matçında daha yaxşı çıxış edəcəyik”. “Astra”nın yeni transferi və qollardan birinin müəllifi Antoni Le Tallek “Zirə”dən çəkindiklərini gizlətməyib.

32 yaşlı hücumçu növbəti mərhələyə yüksəlmək şanslarının çox olduğunu qeyd edib, “üstünlüyü qorumaq üçün səfərdəki görüşdə yaxşı müdafiə olunmalıyıq” deyib. “Zirə”nin gələcəyi var, “Astra”nın “top”unu iyulun 20-də Bakıda “qoltuğuna verib” yola salmaq olar. Buna inanırıq...

***

“Qəbələ” Avropa Liqasının ikinci təsnifat mərhələsində Polşanın “Yagelloniya” klubu ilə heç-heçə etməsi gözlənilən nəticə idi. Açığı hətta futbol bilicilərinə “yad” olan “Yagelloniya”nın belə güclü rəqib olduğunu çətin ki, bilə bilərdi. Heç vaxt çempion belə olmaya Polşa klubu Bakıda ciddi müqavimət göstərdi. “Qəbələ”nin baş məşqçisi Roman Qriqorçukun “hesab ədalətli oldu” rəyi ilə razılaşmamaq mümkün deyil. Doğrudur, həm “Qəbələ”, həm rəqib klubun qalib gəlmək üçün şansları oldu. Amma bəxtləri gətirmədi. “Qəbələ”ni Polşada çətin oyun gözləyir. Amma bu klubda, türklər demiş, “hırs” da var. İkinci hissədə rəqib klub qapısına təzyiqlər bunun sübutudur. Baş məşqçi də azarkeşlər kimi ümidlidir. O deyib ki, gələn görüşdə də oyunçuların ən yaxşıları meydana çıxacaqlar: “Cəmi 5 gün vaxtımız var. İstisna etmirəm ki, növbəti matça qədər yeni oyunçu olacaq”.

**Klubun xorvatiyalı yarımmüdafiəçi Filip Ozobiç 2-ci hissədəki yaxşı oyunu belə izah edib:** “Fasilədə danışdıq, söz verdik ki, çıxıb daha yaxşı oynayaq. İkinci hissə başlayan kimi də qol vurduq. Əlbəttə, bu rəqibi keçə bilərik. İkinci oyuna daha yaxşı hazırlaşacağıq. Mərhələni keçmək istəyirik. Şanslar bərabərdir”. “Qəbələ”nin vitse-prezidenti Fariz Nəcəfov isə deyib ki, klub həmişə gücü çatanın maksimumunu etməyə çalışıb: “”Yagelloniya"nı keçməyə qadirik. Növbəti oyunda bunun şahidi olacağımıza inanıram".

**“Yagelloniya”nın futbolçusu Taras Romançuk da bu barədə danışıb. Ukraynalı yarımmüdafiəçinin sözlərinə, “Qəbələ” ikinci hissənin əvvəlində bizi təəccübləndirmək istəyirdi:** “Ancaq biz buna imkan verməməyə çalışdıq. Biz oyuna daha çox konsentrasiya olmalıyıq və fürsətlərdən istifadə etməliyik. Çünki Avropa Liqasında oynayırıq. Növbəti oyunlarda iki qol fürsəti yaradıb fərqlənə də bilərik”.

**“Yagelloniya” klubunun baş məşqçisi İreniuş Mamrot görüşün nəticəsi barədə danışarkən deyib ki, çətin oyun olub:** “Görüşün sonuna yaxın qələbə qazana bilərdik. Bütün gücümüzü ortaya qoyduq. Cavab oyunu çətin olacaq. Cütün taleyinə ikinci matçda aydınlıq gələcək”.

**Cavab oyununa gəlincə, o, şansları bərabər qiymətləndirib:** “Çünki "Qəbələ" hücumda yaxşı oynayır".

**Qeyd edək ki, bu komandalar arasında cavab görüşü iyulun 20-də keçiriləcək.**

❑ **Nazim SABİROĞLU**











# YENİ MÜSAVAT

## Son səhifə

N 148 (6762) 15 iyul 2017




## Maşınına ilan girdi, polisə zəng etdi

Amerikanın Men ştatının Obern şəhər sakini maşınının salonuna ilan girdiyini görərək, polisə zəng edib. Bu barədə yerli polis departamentinin facebookdakı səhifəsində məlumat verilib. Dispetçer gələn müraciətlə bağlı polis işçisi Trevis Barnisə xəbər verib. Sürücü polislərdən maşınına girən ilanı çıxarmalarını istəyib. Polisə zəng edən sürücü bildirib ki, o, ilanın maşının hansısa hissəsini məhv etməsindən daha çox narahat olub, nəinki ona toxunmasından.

Polis bölməsinin yaydığı məlumatda bildirilir ki, Barnisin çağırışına əsasən, hadisə yerinə gələn polis ilanı yaxalayaraq onu yerə buraxıb. İlana heç bir zədə dəyməyib. Baş vermiş hadisə ilə bağlı yazılan status 720 layk yığıb. Bundan öncə də Kaliforniyada polis qayığa girən ilanı oradan çıxarmışdı. Qayıqda turistlər istirahət edirdi və ilanın o qayığa hansı formada yol tapması ilk gündən müzakirə predmeti idi.

# 25 il əvvəl itirdiyi çantasını tapıb geri qaytardılar

Amerikanın Cənubi Karolina ştatının sakini Eypril Boltanın 25 il əvvəl itirdiyi çantasını geri qaytarıblar. Bu barədə ABC News xəbər verir. Çantanı balıq tutan vaxt təsadüfən 11 yaşlı Brodi Bruks sudan çıxarıb. Uşağın yanındakı qohumu isə onun bu tapıntısını "xəzinə" adlandırıb: "Mən bu çayda illərdir balıq tuturam. Amma ilk dəfədir ki, bunun kimi bir halla qarşılaşıram". Bunu da Ben Meyers deyib.



Bolt 1992-ci ildə ailəsi ilə təbiət qoynuna gəzməyə çıxanda çantasını da qayıqda qoyub. 49 yaşlı qadının sözlərinə görə, kimsə çantanın içindən pulları çıxarandan sonra onu da çaya tullayıb. Qadın çantanın içindəki kosmetikalarını taparaq çox sevinib.

Buna qədər də tarixdə keçmişdə itən əşyaların 20-30 il sonra sahiblərinə qaytarılması barədə faktlar yer alıb. Polislər 20-25 il əvvəl insanların itmiş pulunu, itmiş xatirə əşyasını tapıb onların özlərinə qaytarıblar.

# Qadın olsa da, gündə iki dəfə üzünü qırxır



"Saqqallı qadın görüntülərində gülməli heç nə yoxdur. Üzündə tük çıxan, üzünü taraş edən qadınları ələ salmaq, onlara gülmək tərbiyəsizlikdir, məncə". İki övlad anası Çeril Monks belə deyir. İngiltərənin Lankaşir qraflığındakı Morkemb şəhərində yaşayan Şeril gündə iki dəfə üzünü qırxır. Dediyinə görə, Konçita Vürstün Eurovision-2014-də qələbəsindən sonra onun facebook səhifəsinə yazılan təhqirlərin ardı-arası kəsilmir. Yumurtalıq polikistozu sindromuna (Polycystic Ovaries Syndrome, PCO) tutulmuş Şeril Monks 12 yaşından bəri bu xəstəlikdən əzab çəkir. O, gündə iki dəfə üzünü təraş edir, simasını tüklərdən təmizləyir. PCO qadınlarda arzuolunmuz tüklərin çıxmasının başlıca səbəbidir. Ümumdünya Səhiyyə Təşkilatının hesabatlarına görə, hazırda dünyadakı qadınların 10-15 faizində belə sindrom var. PCO daşıyıcısı olan qadınların yumurtalıqları normal fəaliyyət göstərmədiyindən kiçik kistalar yaranır və sonucda orqanizmdə kişi hormonları olan androgenlərin miqdarı artır. Bu isə qadınlarda arzuolunmaz tükləri formalaşdırır. "Qadının orqanizmində hormonal disbalans yarananda bir qayda olaraq onun çənəsində, yuxarı dodağının üstündə, bakenbardlarında, sinəsində, ayaqlarında sıx tuklər çıxır. Dərinin həmin yerləri testosterona daha həssasdır", - Londondakı "Whipps Cross University Hospital"ın endokrinoloqu, professor Rina Devison söyləyib.




**QOÇ** - Riskdən uzaq olun. Aldığınız hər bir təklifi dönə-dönə fikir süzgəcindən keçirin. Uğursuzluğunuza görə ulduzları söyməkdənsə, səhvlərinizi aradan qaldırın. Məsləhətə ehtiyacınız var.

**BUĞA** - Kifayət qədər gərgin gündür. Ən xırda səhviniz və ya mübahisəniz uzunmüddətli başağrınıza səbəb ola bilər. Odur ki, maksimum tədbirli və ehtiyatlı olmalısınız. Səhhətinizi də qoruyun.

**ƏKİZLƏR** - Fəaliyyət zəminində gərginlik hökm sürsə də, təmkin göstərməklə özünüzü ələ almalısınız. Ulduzlar yeganə uğurunuzun ailə-sevgi münasibətlərində mövcud olacağını bəyan edir.

**XƏRÇƏNG** - Təzə xəbər və təkliflər yolunuzu gözləyir. Bu səbəbdən də bir yerdə oturmaqdan vaz keçin. İndi sizə ən əvvəl münasibətləri aydınlaşdırmaq lazımdır. Düşmən də olsa, hər kəslə mülayim davranın.

**ŞİR** - Həftənin ən düşərli gününü yaşayacaqsınız. Bu səbəbdən də bəd şeyləri yada salıb ovqatınızı pozmayın. Qarşınıza çıxan bütün şanslardan yararlanın. Göy qübbəsi sizi müdafiə edəcək.

**QIZ** - Göy qübbəsi yeni əlaqə və tanışlıq üçün qarşınıza şanslar çıxaracaq. İstər dostluq-yoldaşlıq, istərsə də ailə-sevgi münasibətlərində hər şey ürəyinizcə olacaq. Amma yalan vədlər də verməyin.

**TƏRƏZİ** - Əgər bu gün büdcənizdə artım etmək fikriniz varsa, bəri başdan təxirə salın. Əks təqdirdə, cəhdləriniz boşa çıxacaq. Nahar ərəfəsində sevindirici hadisə və görüşlərə hazır olun.

**ƏQRƏB** - Təxminən saat 13-ə qədər ümumi ovqatınızda gərginlik hökm sürəcək. Həmin ərəfədə daha çox istirahətə yer verin. Nahardan sonra isə əməkdaşlıq zəminində irəliləyişlər mümkündür.

**OXATAN** - Digər od ünsürlü bürclər kimi bu gün sizin də ümumi əhvalınız yüksək səviyyədə olacaq. Reallıqla ayaqlaşmaqla ötən həftələrdən qalmış problemlərinizi aradan qaldırmağa çalışın.

**OĞLAQ** - İşgüzarlığınız artdığından gün ərzində qarşınıza çıxan bütün maneələri aradan qaldıracaqsınız. Şəxsi işlərinizdə müsbət dönüş də baş verəcək. Nahardan sonrasa qonaq getməyə çalışın.

**SUTÖKƏN** - Qayğılarla dolu olan bu tarixdə iş yoldaşlarınız və ya qonşularınızla münasibətləri məcrasından çıxarmayın. Humanistlik edin. Bu gün uzaq yola çıxmaq, qonaq getmək səmərəlidir.

**BALIQLAR** - Kifayət qədər passiv təqvimdir. Qeyri-adi hansısa xeyir əldə etmək fikrindən daşının. Hətta adi sövdələşmələr üçün də uğurlu ərəfə deyil. Günün ikinci yarısı ziyarətə getməyiniz məsləhətdir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Zoomağazadan ancaq it və pişik yeməkləri oğurladılar




Qazaxıstanın Pavlador şəhərində naməlum maskalılar zoomaqazinə hücum ediblər və malların bir hissəsini oğurlayıbıar. Oğrular iki torba (hərəsi 15 kiloqram olmaq üzrə) it yeməyi, eyni zamanda bir neçə kiçik qutu heyvan yeməyi oğurlayıblar. Mağazanın içərisində quraşdırılmış videokamera üzü bağlı oğruların mağazaya necə girməsini, içəriyə ikinci mərtəbədən hoppanmalarını qeydiyyata alıb. Oğrular hadisə yerində yarım saat olublar. "Biz heyvanları zoomağazada saxlamırıq, çünki bu məkan bir qayda olaraq heyvan yeməkləri üçündür" bunu da mağaza sahibi deyib. Ümumi oğurlanan malların qiyməti 200 dollara yaxın olub. İşi araşdıran polislər isə hesab edir ki, bu işi görənlər klassik oğrular yox, imkansız heyvan sahibləri olub. Çünki onlar ancaq it və pişik yeməkləri oğurlayıblar. Ehtimal olunur ki, oğrular çoxlu sayda it və pişik saxlayırlar.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100